**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İNFORMASİYA SİYASƏTİ: TƏŞƏKKÜLÜ, İNKİŞAFI VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

İxtisas: 5908.01 – "Siyasi nəzəriyyə"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Xalid Qüdrət oğlu Niyazov**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2021**

**Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun "Müasir siyasətin fəlsəfəsi" şöbəsində yerinə yetirilmişdir**

**Elmi məsləhətçi:** Tarix üzrə elmlər doktoru, professor
**Əli Məhəmməd oğlu Həsənov**

**Rəsmi opponentlər:** Siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

Tarix üzrə elmlər doktoru, professor
**Ağalar Nəriman oğlu Abbasbəyli**

Siyasi elmlər doktoru, professor
**Vəsilə Cümşüd qızı Hacıyeva**

Siyasi elmlər doktoru, dosent
**İradə Tofiq qızı Nuriyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BED 2.30 Birdəfəlik Dissertasiya şurası

Birdəfəlik Dissertasiya şurasının sədri: akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Birdəfəlik Dissertasiya şurasının elmi katibi: Siyasi elmlər doktoru, dosent
**Sevil İmamverdi qızı Məmmədova**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, professor
**Əlikram Zakir oğlu Abdullayev**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünya nizamı, onun aparıcı inkişaf tendensiyaları, var olma və yaşam uğrunda mücadilənin vazkeçilməz şərtləri, cəmiyyət həyatının ən müxtəlif sahələrini ehtiva edən mötədil təkamül meyilləri, fərdi, ictimai və beynəlmiləl xarakterli münasibətlərin söykəndiyi əsas prinsip və meyarlar mahiyyəti etibarilə yeni bir cəmiyyətin təşəkkülünü bəyan etməklə yanaşı, həm də onun əsas məhsuldar qüvvəsi sayılan yeni insan tipinin formalaşmaqda olduğunu ortaya qoymaqdadır.

Günümüzün insan tipini səciyyələndirən əsas məqamlardan biri onun informasiya ilə maksimum vəhdətidir. Yüksək texnologiyaların aramsız inkişafı informasiya daşıyıcılarının daha innovativ forma müxtəlifliyini diktə etsə də, qlobal informasiya bolluğu şəraitində informasiya aclığı özünü hər an daha bariz və sərt şəkildə ifadə etməkdədir. Məhz bu amil dövləti həmin sahədə mövcud olan münasibət və fəaliyyətləri nizamlamağa qadir vahid bir texnoloji-ideoloji siyasət hazırlayıb həyata keçirməyə təşviq edir.

Bütövlükdə, dünya birliyinin, eləcə də ayrı-ayrı milli dövlətlərin müasir vəziyyətinin məxsusi özəlliyi informasiya məkanının intensiv və dinamik inkişafı ilə səciyyələnir. Belə ki, XX əsrin ortaları - XXI əsrin əvvəli bəşəriyyətin yaddaşına sosial quruluşun ənənəvi modellərindən informasiya cəmiyyətinə keçid kimi qlobal bir tendensiyanın təzahürü ilə həkk olunacaqdır.

Adıgedən təmayül müasir Azərbaycan cəmiyyətinin bütün həyat qabiliyyətli sferalarına təsir göstərməklə təkcə iqtisadi deyil, həmçinin ictimai-siyasi və sosiomədəni sahələrdə dəyişiklikləri qidalandıracaq mühüm faktora çevrilir. Artıq yeni informasiya reallıqlarının təsiri altında fərdlərarası, ictimai, dövlətdaxili və dövlətlərarası münasibətlərin bütöv bir spektri xarakter, məzmun və keyfiyyət dəyişikliyinə məruz qalır.

Bəs ümumdünya informasiya məkanında Azərbaycanın yerini, mövqeyini, rol və çəkisini necə müəyyənləşdirmək mümkündür?

Bu sahədə Azərbaycanın qarşısında cox mühüm, həlli vacib

problemlər durur. Həmin məsələlərin təhlilinə tədqiqat işində geniş yer ayrılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin son illər imzalamış olduğu demək olar ki, bütün proqram və konsepsiya xarakterli sənədlərdə, müxtəlif çıxışlarında müntəzəm olaraq ölkənin artıq formalaşmış dünya informasiya münasibətləri arxitekturasındakı yeri və gücü barədə çağırış, tezis, təklif və tələbləri səslənir. Buna görə də əsas vurğunun elmin, innovasiyaların, mədəniyyətin, informasiya sənayesi və insan potensialının inkişafına edildiyi informasiya cəmiyyətinin təşəkkülü yolu dövlət başçısının da ifadə etdiyi prioritetlər sırasındadır. Bu, özünün ifadəsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxiş" İnkişaf Konsepsiyasında da tapmışdır. Sənəddə göstərilir ki, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, informasiya təhlükəsizliyi sahəsində fəaliyyətin genişləndirilməsi, rəqabətqabiliyyətli İKT potensialının gücləndirilməsi, yüksəkixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanması Konsepsiya çərçivəsində qarşıda duran prioritet vəzifələrdəndir[1]. Paralel olaraq informasiya sferasında fəal dövlət siyasətinin aparılmasını, həmin fəaliyyətin həyata keçirilməsinə Azərbaycan cəmiyyətinin sosial palitrasını təmsil edən bütün qüvvələrin cəlb edilməsini nəzərdə tutan belə bir yol müstəqil respublikamıza beynəlxalq müstəvidə rəqabətqabiliyyətli üstünlüklər qazandırmaq iqtidarındadır.

Bu gün dərin transformasiya prosesləri sosiumun həyat və fəaliyyətinin əsas sferalarını əhatə etməkdədir. Artıq bəşər təkamülünün növbəti tarixi mərhələsi olan sənayeləşmənin başa çatması və informasiya cəmiyyətinin nəzəriyyəsi sahəsində tanınmış alimlərdən M.Kastelsin də ifadə etdiyi kimi, "... *əsas inkişaf təmayülünü informasiyalaşmanın müəyyənləşdirdiyi yeni mərhələnin başlanması barədə danışmaq mümkündür"*[2].

---

[1] "Azərbaycan 2020: Gələcəyə baxiş" İnkişaf Konsepsiyası // http://www.president.az/files/future_az.pdf

[2] Кастельс М. Информационная эпоха: экономика, общество и культура. М.: ГУ-ВШЭ, 2000, 492 с.

İnformasiyalaşma mərhələsində nemətlərin istehsalı, hakimiyyətin həyata keçirilməsi və mədəni kodların yaradılması kimi proseslər əsas etibarilə cəmiyyətin texnoloji imkanları ilə diktə edildiyinə görə bəşəriyyətin yeni inkişaf yoluna qədəm qoymasının həlledici faktoru rolunda elmi ədəbiyyatda *"informasiya inqilabı"* adlandırılan fenomen çıxış edir[3].

İnformasiya siyasəti dövlətin daxili və xarici siyasətinin əsas paradiqmalarını vəhdət halında birləşdirməklə onların mühüm komponentlərinin sintez edilmiş təmsilçisi kimi çıxış edir. Savadlı və tarazlaşdırılmış informasiya siyasəti idarəetmə aparatı ilə yanaşı, vətəndaş cəmiyyətinin də maraqlarını nəzərə alır. Maraqların hər hansı birində tənasübün pozulması, bir qayda olaraq, həmin siyasətin disfunksiyasına gətirib çıxarır. Məsələn, Azərbaycan kimi müharibə vəziyyətində olan dövlətlərdə hərbi təhlükəsizlik sahəsində informasiya siyasəti yeridərkən özünün ən geniş mənasında dövlət maraqlarını və milli maraqları nəzərə almaq vacibdir.

Son iki onilliyin iddialı qloballaşma çağırışları kontekstində milli identikliyini qorumaqla yanaşı, dünya birliyinə fəal inteqrasiya xətti yeridən Azərbaycan Respublikası informasiya siyasəti çərçivəsində kifayət qədər nəhəng vəzifələrin həyata keçirilməsinə hədəflənmişdir – vahid informasiya məkanının formalaşdırılması və dünya informasiya məkanına inteqrasiya etmək, dövlət, cəmiyyət və şəxsiyyətin informasiya təhlükəsizliyinin təmin edilməsi, demokratik görüşlü kütləvi şüurun formalaşdırılması, informasiya xidmətləri sferasının təşəkkülü, informasiyanın alınması, yayılması və istifadəsi ilə bağlı ictimai münasibətlərin hüquqi tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi və s.

Vətəndaşların vacib konstitusion hüquqlarından (maddə 47, 50) biri kimi informasiyanın sərbəst şəkildə yaradılması, yayılması və istehlakı bir qayda olaraq ictimai diqqətin mərkəzində yerləşdiyinə görə dövlət informasiya siyasətinə Azərbaycanın dövlət və vətəndaş cəmiyyəti institutlarında demokratik xarakterli

---

[3] Мелюхин И.С. Информационное общество: истоки, проблемы, тенденции развития. М.: Изд-во Моск. ун-та, 1999, 308 с.

dəyişikliklərin ciddi aparıcı qüvvəsi kimi yanaşmaq doğru olardı. Qarşıda bizi vətəndaş cəmiyyəti və hüquqi dövlətin daha da təkmilləşməsinə aparan uzun bir yol gözləsə də, artıq bu gün Azərbaycanda informasiyanın açıqlığı prinsipinə və daim təkmilləşməkdə olan informasiya qanunvericiliyi sisteminə söykənən yeni informasiya reallığının formalaşmaqda olduğunu söyləmək mümkündür.

Bu gün bəşəriyyətin müasir inkişaf mərhələsini az qala həndəsi silsilə ilə artan informasiya bolluğu səciyyələndirir. Təxminən son 50-60 ili əhatə edən belə bir vəziyyət *Z.Bjezinski, D.Bel l*və *E.Toffler* kimi alimlərə belə bir nəticəyə gəlməyə əsas vermişdir ki, cəmiyyət qlobal informasiya məkanı, başqa sözlə ifadə etsək, inkişafın informasiya mərhələsi ilə xarakterizə edilən postsənaye inkişaf dövrünə qədəm qoymuşdur. Bu dövr əksər dövlətlər üçün bir sıra adaptasiya səciyyəli problemlərin mənbəyi olmaqla qalmayıb, özü ilə adekvat yanaşma tələb edən yeni çağırış və təhdidlər də gətirdi [4].

Problemlə bilavasitə məşğul olan mütəxəssislərin yekdil qənaətinə görə, dövlət informasiya siyasətinin məqsədi – vətəndaşların və ölkənin informasiya təhlükəsizliyinin təminatı, dövlət siyasətinin informasiya-analitik müşayiəti (təminatı), dövlət tərəfindən qəbul edilmiş qərar və proqramların idarəetmənin əsas kütləvi subyekti kimi əhaliyə çatdırılması kimi vəzifələrin yerinə yetirilməsindən ibarətdir.

Qoyulmuş problemi daha dolğun və hərtərəfli araşdırmaq məqsədilə Qərb müəlliflərindən N.Vinerin[5], Rusiya alimi A.Ursul[6] və başqalarının informasiya fenomeninin elmi şərhinə həsr olunmuş

---

[4] Бжезинский З. Между двумя веками: роль Америки в эру технотроники / пер. с англ. М.: Прогресс, 1972, 307 с.; Белл Д. Грядущее постиндустриальное общество. Опыт социального прогнозирования / пер. с англ. В. Л. Иноземцева. М.: Академия, 2004, 790 с.; Тоффлер Э. Третья волна. М.: ООО "Фирма "Издатетьство АСТ", 2004, 261 с.

[5] Винер Н. Кибернетика и общество / Пер. с англ. Е.Г. Панфилова. М.: Тайдекс Ко, 2002, 183 с.

[6] Урсул А. Информация. Методологические аспекты. М.: Наука, 1971, 293 с.

fundamental tədqiqatlarına müraciət olunmuşdur. Dissertasiyada, həmçinin, müasir sosiologiyanın K.Yaspers, Y.Habermas, T.Adorno, M.Veber kimi nümayəndələrinin kütləvi informasiya kommunikasiyaları və kütləvi informasiyanın dövlət idarəçiliyində və bütövlükdə, siyasətdəki roluna həsr olunmuş sosioloji nəzəriyyələrindəki müəyyən tezislərdən istifadə edilmişdir[7].

Tədqiqata cəlb edilmiş məsələlər KİV-in cəmiyyətin ictimai-siyasi həyatındakı roluna həsr olunmuş elmi işlərlə tanışlıq imkanı yaratmışdır. Hakimiyyət, cəmiyyət və KİV-in qarşılıqlı əlaqələrinə öz elmi işlərində rus siyasətşünas və filosoflarından *A.S. Panarin, K.C. Hacıyev*, V.P. *Puqaç*ev geniş yer ayırmışlar[8]. Jurnalistikanın inkişafı, həmçinin KİV sahəsində dövlət siyasətinin öyrənilməsi ilə müxtəlif illərdə *E.P. Proxorov, V.V. Yeqorov, İ.M. Dzyaloşinski*, Azərbaycan alimlərindən *Ş.Vəliyev, C.Məmmədli* və *A.Rüstəmov* məşğul olmuşlar[9].

İstinad olunan mənbələrin zənginliyinə baxmayaraq, onların əksəriyyəti dövlət informasiya siyasətinin məhz ayrı-ayrı aspektlərinin araşdırılmasına həsr olunmuşdur. Dövlət informasiya

---

[7] Ясперс К. Смысл и назначение истории / Пер. с нем. М. И. Левиной; вступ. ст. П. П. Гайденко. М.: Республика, 1994, 528 с.; Хабермас Ю. Демократия. Разум. Нравственность: Моск. лекции и интервью. М.: Академия, 1995, 252 с.; Адорно Т. Проблемы философии морали. М.: Республика, 2000, 239 с.; Вебер М. Политика как призвание и профессия / Пер. с нем. / Сост., общ. ред. и послесл. Ю.Н. Давыдова; Предисл. П.П. Гайденко // Москва: Прогресс, 1990, 808 с.

[8] Панарин А.С. Искушение глобализмом. М.: Изд-во ЭКСМО-Пресс, 2002, 416 с.; Гаджиев К.С. Политическая философия. М.: Инфра-М, 2010, 320 с.; Пугачев В.П. Информационная власть и демократия // Общественные науки и современность. М., 1999, № 4.

[9] Прохоров Е.П. Введение в теорию журналистики. М.: Аспект Пресс, 2011, 351 с.; Егоров В.В. Телевидение и власть. М.: АО ПЦ "Эфир", 1997, 207 с.; Дзялошинский И.М. Методы деятельности СМИ в условиях становления гражданского общества. М.: Пульс, 2001, 48 с.; Vəliyev Ş., Babayev Z. Azərbaycanda internet jurnalistikası: tarixi və perspektivləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 248 s.; Məmmədli C.Ə. Jurnalistikanın müasir inkişaf meylləri. Bakı: Elm, 2006, 374 s.; Rüstəmov A. Jurnalistikanın əsasları. Dərs vəsaiti. Bakı: BDU, 2011, 347 s.

siyasətinin sistemli şəkildə öyrənilməsinə əsaslanan kompleks tədqiqatlara gəldikdə isə, onların sayı qaneedici deyil, xüsusilə Azərbaycan siyasi elmində bu cür tədqiqatlar, təəssüflər olsun ki, “fraqmental” xarakter daşıyır. Məsələn, dövlət hakimiyyəti orqanlarının informasiya-təhlil təminatı, idarəetmə strukturlarının informasiyalaşdırılması, ölkədə vahid informasiya məkanının yaradılması, informasiya münasibətlə-rinin hüquqi tənzimlənməsi ilə bağlı problemlərin öyrənilməsi daha fundamental araşdırmaya ehtiyacı olan məsələlərdəndir.

Azərbaycan Respublikasında dövlət informasiya siyasətinin və informasiya-texnoloji inkişafın dövlət tənzimlənməsinin əsas təyinatı informasiya təhlükəsizliyinin təmin edilməsidir. Belə bir zərurət informasiya təhdidlərinə qarşı dövlətin işlək strategiyasının hazırlanmasının vacibliyini və cəmiyyət-dövlət-vətəndaş üçbucağında təşəkkül tapan informasiya münasibətlərinə yeni məzmun və impuls verilməsinin aktuallığını göstərir.

Ölkədə dövlət informasiya siyasətinin (DİS) bütövlükdə deyil, ayrı-ayrı aspektlərinin tədqiqi nisbətən son illərə təsadüf edir. Bu baxımdan R.Mehdiyevin, Ə.Həsənovun, H.Babaoğlunun, V.Rəhimzadənin, C.Xəlilovun, F.Əliyevanın və b. hər bir müstəqil dövlət üçün müstəsna əhəmiyyət kəsb edən milli təhlükəsizlik, milli maraqlar, onların qorunmasında KİV-in rolu ilə bağlı problemlərin geniş təhlil edildiyi monoqrafiya və tədqiqatları maraq doğurur[10].

İnformasiya cəmiyyəti, informasiyalaşmanın ictimai münasibətlərdə doğurduğu spesifik problemlər, informasiya mədəniyyəti və informasiya siyasətinin formalaşmasına və həyata keçirilməsinə bilavasitə təsiri olan bu kimi digər məsələlər

---

[10] Mehdiyev R.Ə. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2008, 792 s.; Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi LTD, 2016, 700 s.; Babaoğlu H. İnfoimperializm və media. Bakı: MSA, 2013, 192 s.; Rəhimzadə V. "Söz və mətbuat azadlığı demokratik inkişafın əsası kimi: Azərbaycan təcrübəsi". Bakı: Mars-Print, 2016, 303 s.; Xəlilov C. Milli təhlükəsizlik strategiyası. Bakı, 2016, 456 s.; Əliyeva F. Qloballaşma və Azərbaycanın milli təhlükəsizlik fəlsəfəsi. Bakı: Səda, 2008, 163 c.

R.Əliquliyev, İ.Məmmədzadə, R.Mirzəzadənin əsərlərində öyrənilmiş, həmin əsərləri bu istiqamətdə təhlillərin aparılmasında və nəticələrin əldə olunmasında faydalı mənbə kimi dəyərləndirmək olar[11].

Müəllif müasir dövrdə hər bir dövlət, bütövlükdə isə cəmiyyət üçün prioritet təşkil edən informasiya təhlükəsizliyi problemləri, müasir şəraitdə onları həll etməyin yol və vasitələri, milli informasiya məkanı və informasiya təhlükəsizliyinə təhdidlər, informasiya mübarizəsi və yeni medianın davranışı ilə bağlı məsələlərin təhlilində alimlərdən C.Məmmədli, C.Qasımov, V.Qasımov, D.Həşimov, N.Nuriyev, A.Piriyev, Ş.Eyvazov, V.Əsgərov və başqalarının əsərlərini də nəzərdən keçirərək, onlara münasibət bildirmişdir[12].

90-cı illərin sonlarından etibarən informasiyalaşmanın müxtəlif proqramlarında ifadə olunmuş dövlət informasiyalaşdırma siyasətinin prinsip və əsasları müəyyənləşdirilib inkişaf etdirilir. Və bu siyasət praktiki olaraq dövlətin KİV və rabitə-telekommunikasiya

---

[11] Əliquliyev R.M. İnformasiya mədəniyyəti: mahiyyəti və formalaşdırılması problemləri və həlli yolları. Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası. Bakı, 2008, №1, s. 137-145; Məmmədzadə İ.R. Milli informasiya məkanı və informasiya təhlükəsizliyinə təhdidlər: bəzi humanitar aspektlər. Bakı, Strateji təhlil, 2014, №3 (10), s. 9-21; Mirzəzadə R. İnformasiya cəmiyyəti: multikulturalizm və genderin multidissiplinar əlaqələri. İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktiki konfransı Bakı, 2015, https://ict.az/uploads/konfrans/2_konfrans/7.pdf .

[12] Məmmədli C.Ə. “Kaspi” qəzetində informasiya siyasəti. “Üç əsrin qəzeti”. Bakı: Qanun, 2016, 528 s.; Qasımov C.Ə. Milli təhlükəsizliyin əsasları /N.Nağıyev/ Bakı: MTNA, 2015, 407 s.; Qasımov V.Ə. İnformasiya təhlükəsizliyinin əsasları. Bakı: MTN MTBİ NPM, 2009, 340 s.; Həşimov D. Siyasi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi. Azərbaycan Respublikasının materialları əsasında / s.e.ü.f.d. dissertasiyası / Bakı, 2010, 162 s.; Piriyev A.M. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı: BDU, 2002, 534 c.; Eyvazov Ş. Transformasiya mərhələsində cəmiyyətin informasiya təhlükəsizliyi məsələləri. Bakı: Strateji təhlil, 2014, № 4(11), s. 123-132; Əsgərov V.G. Azərbaycan Respublikasının milli təhlükəsizlik sistemində informasiya təhlükəsizliyinin yeri və rolu /s.e.ü.f.d. dissertasiyasının avtoreferatı / Bakı, 2006, 26 s.

sahəsində yürütdüyü siyasətdən fərqlənməkdədir. Azərbaycanda siyasi və sosial-iqtisadi yüksəlişin ən etibarlı zəmanəti kimi informasiya cəmiyyətinin qurulması ilə bağlı dialektikanın ümumi inkişaf qanunauyğunluqlarından irəli gələn obyektiv zərurət dövlət informasiya cəmiyyətinin inkişafına yeni impuls verməkdədir.

Dissertasiyada Azərbaycan Respublikasında informasiya siyasətinin tarixi, KİV-in informasiya siyasətinin formalaşması və həyata keçirilməsində rolu, KİV sahəsində dövlət informasiya siyasəti, milli maraq və xəbər siyasəti, bu siyasətin ictimai rəyin formalaşması və informasiya təhlükəsizliyi kontekstində nəzəri əsasları və ölkədə cərəyan edən informasiya prosesləri təhlilə cəlb olunmuşdur.

Elmi işdə ölkədə azad mətbuatın təşəkkülü və formalaşmasında, mətbuat orqanlarının sərbəst fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsinə öz töhfəsini vermiş ulu öndər Heydər Əliyevin mətbu görüşləri araşdırılmış, Prezident İlham Əliyevin mətbuata, azad sözə, ölkənin media və informasiyakommunikasiya sənayesinə dəstəyinin elmi-politoloji əsasları təhlil edilmişdir.

Hər bir cəmiyyət informasiya təhlükəsizliyini ümummilli təhlükəsizliyin vacib komponenti hesab edir. İnformasiya təhlükəsizliyi mövcud informasiya mühitinin potensial təhdid və təhlükələrdən qorunmasıdır. Bu məsələ Azərbaycan geosiyasi “landşaft”ında xüsusilə aktualdır. Tədqiqat işində informasiya təhlükəsizliyini dövlət, cəmiyyət, sosial qrup və şəxsiyyətlər kontekstindən şərh etməyə, potensial informasiya təhlükəsini dəf etmək üşün etibarlı müdafiənin təşkili məsələlərinin ideoloji və texniki imkanlarını, habelə informasiya mədəniyyətinin ehtiva dairəsini dəyərləndirməyə çalışmışıq.

Hesab edirik ki, dövlət hakimiyyətinin, siyasi birliklər və elmi ictimaiyyətin təxirəsalınmaz diqqəti məhz dövlət informasiya siyasətinin konseptual əsaslarının işlənib hazırlanması və müasir inkişaf dövrünün spesifik, özünəxas xüsusiyyətləri nəzərə alınmaqla

Azərbaycanın informasiya qanunvericiliyinin təkmilləşdirilməsi problemlərinə yönəldilməlidir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti qismində Azərbaycan dövlətinin informasiya siyasəti çıxış edir.

Tədqiqatın predmetini Azərbaycan dövlətinin informasiya fəallığı, informasiya sferasının, ictimai informasiya münasibətlərinin, informasiya proseslərinin inkişaf qanunauyğunluqları, eləcə də informasiya siyasətinin həyata keçirilməsinin mahiyyətinin, fəaliyyət prinsiplərinin, istiqamət və reallaşdırılma mexanizmlərinin təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Elmi işin məqsədi informasiya hadisələri və proseslərinin təhlili, onların müqayisə və qiymətləndirilməsi platformasında Azərbaycan dövlətinin informasiya siyasətinin problem, istiqamət və reallaşdırılma mexanizmlərinin müəyyənləşdirilməsi, informasiya siyasətinin əsas xarakteristikalarının aşkarlanması, KİV-in informasiya siyasətindəki yeri və rolunun, KİV sahəsində dövlət informasiya siyasətinin problem və perspektivlərinin müəyyənləşdirilməsindən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı əsas vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir:

- informasiya siyasətinin mahiyyətinin informasiya cəmiyyətinin fenomeni kimi açılması;
- dövlət informasiya siyasətinin elementlərinin təhlili;
- KİV sahəsində dövlət informasiya siyasətinin formalaşması və həyata keçirilməsində medianın rolunun forma və metodlarının təhlili;
- KİV-in informasiya siyasətinin obyekt və subyekti kimi rolunun öyrənilməsi;
- Azərbaycanda siyasi-iqtisadi transformasiyalar şəraitində informasiya siyasətinin prioritetlərinin aşkarlanması;
- Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının informasiya əsaslarının və informasiya sferasında milli maraqların öyrənilməsi;
- informasiya təhlükəsizliyi və siyasi təhlükəsizliyin anlayış və prinsiplərinin təhlili;

- Azərbaycan dövlət informasiya siyasətinin qanunvericilik əsaslarının formalaşması və inkişafı, informasiya hüququnun söz və fikir azadlığı ilə qarşılıqlı əlaqəsinin öyrənilməsi;

**Tədqiqat metodları.** Elmi işdə istifadə edilən əsas ümumelmi metod müqayisəli-politoloji təhlil metodudur. Bu metoddan informasiyalaşma və dövlət informasiya siyasəti ilə bağlı məsələlərdə Azərbaycan və xarici ölkələrin təcrübəsinin müqayisəli təhlilində geniş istifadə olunmuşdur.

Problemin araşdırılmasına struktur-funksional yanaşma həm informasiya siyasəti, həm də jurnalistikanı dövlətin ümumi vəzifə və məqsədləri müstəvisində mürəkkəb bir sistemin sinxron fəaliyyət göstərən elementləri kimi öyrənməyə imkan vermişdir.

Tədqiqat işində həmçinin sosial-informasioloji, kontent-analiz, sistemli yanaşma, normativ, tarixi-müqayisəli, sosioloji və digər metodlardan istifadə edilmişdir.

Adı çəkilən metodoloji yanaşmalar dövlət informasiya siyasətini yeni tipli cəmiyyətin mövcud institutları ilə qarşılıqlı münasibətdə tədqiq etməyə və zəruri nəticələr əldə etməyə imkan vermişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Qeyd edək ki, informasiya siyasəti və onunla bağlı olan texnologiyalar probleminin özü kifayət qədər çoxaspektlidir. Digər tərəfdən, bu gün dünyanın müasir geosiyasi şəraiti çox sürətlə, bəzən isə köklü şəkildə dəyişir. Buna görə də dünyadakı hakim siyasi tendensiyalar şəraitində ciddi transformasiya prosesləri yaşayan Azərbaycan Respublikasının informasiya siyasətinin mühüm aspektlərinin tədqiq edilməsi kifayət qədər aktual sayıla bilər.

Dövlətin informasiya siyasətinin öyrənilməsinin, sosial-siyasi təhlilinin aktuallığını şərtləndirən amillər sırasında aşağıdakıları göstərmək mümkündür:

1. “Kommunikasiya partlayışı” ilə qarşılaşmamış dövlətlər öz üzərlərində informasiya potensialının qüvvətli təsirini hiss edirlər. Qarşıda belə bir obyektiv gerçəklik var – informasiya-kommunikasiya texnologiyalarının inkişafı qlobal informasiya məkanının yaranmasını şərtləndirmişdir və perspektivdə də səmərəli inkişafı

qarşısına məqsəd qoyan Azərbaycanın həmin prosesə inteqrasiyası labüddür.

2. Bütün dövlət və ictimai strukturların fəaliyyətinin səmərəlilik əmsalı bir çox hallarda yetkin informasiya siyasəti konsepsiyasından və onun uğurlu şəkildə həyata keçirilməsindən asılı olduğu üçün informasiya siyasəti, onun işlənib hazırlanması və reallaşdırılması prosesi sürətləndirilməlidir.

3. Siyasi və oliqarxik elitanın kifayət qədər ciddi problemlərindən biri kütləvi informasiya vasitələrinin tendensiyalılığı, tərəfkeşliyidir. Bu, mass-media institutlarına etimadı zərbə altına qoyduğuna və bütövlükdə, cəmiyyətə qeyri-sağlam təsir göstərdiyinə görə KİV-in informasiya siyasətinin cəmiyyətdə gedən islahatlara uyğun təshih edilməsi vacibdir.

4. İnformasiya siyasətinin həyata keçirilməsi milli təhlükəsizliyin bir sıra problemləri ilə birbaşa əlaqədə olduğu üçün Azərbaycanın müasir inkişaf mərhələsində həmin problemin kompleks və elmi-konseptual tədqiqi kifayət qədər aktual səciyyə daşıyır.

5. Tədqiq edilən mövzu Azərbaycan siyasi elmi üçün nisbətən yeni sahə olduğu üçün informasiya siyasətinin politoloji analizi və reallaşdırılmasının üsul və vasitələrinin öyrənilməsi sistemli səciyyə daşımalıdır.

6. Dövlət hakimiyyətinin, sahəvi elm ictimaiyyətinin qarşısında duran vəzifələrdən biri ölkə qanunvericiliyini dövlət informasiya siyasətinin yaratdığı yeni ictimai münasibətləri tənzimləyə biləcək səviyyədə təkmilləşdirməkdir.

7. Azərbaycan dövlətçiliyinin konstitusion, siyasi və sosial-iqtisadi əsaslarının köklü islahatını ölkənin ərazi bütövlüyünə təhdid yarada biləcək hər hansı bir milli, sosial, yaxud dini zəmində münaqişələrsiz həyata keçirmək üçün hakimiyyətlə cəmiyyət arasında daimi informasiya mübadiləsinin təmin olunması, vətəndaş cəmiyyətinin formalaşmasının vacib amili sayılan açıq informasiya məkanının yaradılması vacibdir.

8. Vətəndaş cəmiyyəti ilə dövlət hakimiyyətinin mövqelərinin uzlaşdırılmasının ən optimal yolu mükəmməl informasiya

siyasətinin hazırlanıb reallaşdırılmasından keçir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqata cəlb edilmiş mövzu müasir Azərbaycan siyasətşünaslıq elmində sistemli şəkildə öyrənilmədiyi üçün bir sıra elmi yeniliklərdən bəhs etmək mümkündür:

- informasiya siyasətinin dərketmə obyekti kimi metodoloji əsasları müəyyən edilmişdir;
- dövlət informasiya siyasətinin reallaşdırılmasının əsas istiqamətləri göstərilmişdir;
- milli informasiya siyasətinin prioritet istiqamətləri ilə bağlı təkliflər verilmişdir;
- mediasferanın inkişafının vahid qayda və istiqamətləri barədə təkliflər verilmişdir;
- Azərbaycan Respublikasının informasiya münasibətlərini tənzimləyən qanunvericilik aktları və beynəlxalq təşkilatların normativ-hüquqi sənədlərinin sistemli təhlili sayəsində ölkənin informasiya siyasətinin hüquqi bazasının inkişaf tendensiyaları və ziddiyyətləri müəyyənləşdirilmişdir;
- fərdi tədqiqatın materialları əsasında KİV-in fəaliyyətinin dövlət tənzimləməsinin problem və prioritetləri aşkar edilmiş, hakimiyyət orqanlarına praktiki tövsiyələr verilmişdir;
- dövlət informasiya siyasətinin KİV seqmentində və müxtəlif hakimiyyət orqanlarında həyata keçirilməsi, informasiya münasibətlərinin yaradılması, informasiya təhlükəsizliyi və siyasi təhlükəsizliklə bağlı hüquqi, təşkilati və texniki xarakterli tədbirlər təklif edilmişdir;
- müasir sosial-siyasi transformasiyalar postsənaye cəmiyyətinin və informasiya siyasətinin genezisinin əsas hərəkətverici qüvvəsi kimi təqdim olunmuşdur;
- informasiya məkanının müasir cəmiyyət və dövlət siyasətindəki siyasi rolu yeni baxış bucağından nəzərdən keçirilmişdir. Bu rolun informasiya məkanının ictimai prosesləri, həmçinin siyasi prosesdə üstün mövqelərini qoruyub saxlamağı bacaran aktorların maraqlarını təcəssüm etdirmək və nəticə etibarilə dəyişdirə bilmək imkanlarında ifadə olunduğu göstərilmişdir;

- informasiya siyasətinin baza institutlarının və məzmununun müəllif interpretasiyası təqdim olunmuşdur. Əsas obyekt qismində ictimai rəy nəzərdən keçirilmiş, informasiya siyasətinin subyektləri fərqli aspektlərdən təsnifləndirilmişdir (Avropa ölkələri və ABŞ nümunəsində dövlət informasiya siyasətinin formalaşması və reallaşdırılmasının dünya təcrübəsi kamparativ əsaslarla nəzərdən keçirilmişdir, ictimaiyyətlə əlaqələr informasiya siyasətinin institutu və vasitəsi kimi təqdim edilmişdir);

- informasiyaya olan hüququn insan hüquqlarının təsnifatı sistemində yeri ilə bağlı təkliflər verilmişdir;

- milli informasiya fəaliyyəti və təhlükəsizliyi siyasətinin hüquqi əsaslarını müəyyənləşdirəcək və dövlətin informasiya mühitinin təhlükəsizliyinə ən müxtəlif təhdidləri proqnozlaşdıraraq öyrənib təhlil edə biləcək direktiv sənədlərin işlənib hazırlanmasının məqsədəuyğunluğu təklif edilmişdir;

Aparılmış tədqiqatlar ölkənin informasiya siyasəti konsepsiya-sının hazırlanması üzrə mövcud praktikanın siyasi-nəzəri və hüquqi əsaslarını sistemləşdirməyə imkan verir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada qoyulan problemlər yalnız siyasətşünaslıq elmi üçün deyil, bütövlükdə inteqrasiya yolu tutmuş Azərbaycanda transparent, şəffaf, hüquqi, demokratik, vətəndaş cəmiyyəti quruculuğunda dövlət informasiya siyasətinin tətbiqinin forma və mexanizmlərinin işlənib hazırlanması və reallaşdırılması baxımından da aktualdır.

Müəllifin gəldiyi əsas nəticə və ümumiləşdirmələr gələcəkdə dövlət informasiya siyasətinin müxtəlif nəzəri-praktik problemlərinin öyrənilməsi prosesində istifadə üçün yararlı ola bilər. Dissertasiya işinin əsas müddəa və nəticələrindən dövlət siyasətinin informasiya və fərqli istiqamətləri, infomasiya hüququ, KİV-in hüquqi tənzimlənməsi, informasiya siyasəti tarixi, informasiya və siyasi təhlükəsizliklə bağlı dərslik, dərs vəsaiti, monoqrafiyaların hazırlanmasında, elmi-praktik konfransların keçirilməsində istifadə edilə bilər.

Praktiki tövsiyələrdən medioloqların, jurnalistlərin, dövlət hakimiyyəti orqanları əməkdaşlarının, siyasətşünaslıq və

jurnalistika sahəsində təhsil alan tələbələrin, KİV və informasiya hüququ ilə maraqlananların istifadəsi mümkündür.

Tədqiqatın əsas materiallarından ali məktəblərdə "İnformasiya siyasəti", "Siyasi jurnalistika", "KİV-in hüquqi tənzimlənməsi", "İnformasiya təhlükəsizliyi", "Dövlət informasiya siyasətinin tarixi" ilə bağlı mühazirələrdə istifadə oluna bilər.

**Aprobasiya və tətbiqi.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun "Müasir siyasətin fəlsəfəsi" şöbəsində müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir.

Təqdim olunan işin başlıca müddəa və nəticələrinin ehtiva edildiyi 73 məqalə Azərbaycan Respublikasında və xarici ölkələrdə nəşr olunan nüfuzlu elmi jurnallarda dərc edilmiş, çıxışlar yerli və xarici elmi-praktik konfransların materiallarında əksini tapmışdır.

Tədqiqat mərhələsində doktorantın araşdırılan mövzu ilə bağlı iki monoqrafiyası və bir kitabı çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutu.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqat işi giriş, dörd fəsil, 16 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Giriş 37585, I fəsil 125209; II fəsil 158660; III fəsil 167686; IV fəsil 89609; Nəticə 30788, bütövlükdə, tədqiqat işinin həcmi 609537 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə tədqiq olunan mövzunun aktuallığı əsaslandırılır, problemin elmi araşdırılma dərəcəsi təhlil edilir, tədqiqatın predmeti, məqsəd və vəzifələri, həmçinin metodları müəyyənləşdirilir, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti açıqlanır.

Dissertasiyanın **"Dövlət informasiya siyasətinin tədqiqinin nəzəri aspektləri"** adlanan birinci fəsli dörd paraqrafdan ibarətdir. **"İnformasiya siyasətinin anlayışı, mahiyyəti, prinsip və**

**funksiyaları**” sərlövhəli ilk paraqrafda müəllif “informasiya siyasəti” anlayışını geniş şərh edir, dövlət informasiya siyasətinin əsas vəzifələri təsnif olunur, bu siyasətin əsas strateji məqsədini formalaşdıran amillər və prinsiplər təhlil edilir. Burada, həmçinin, dövlət informasiya siyasətinin ayrı-ayrı funksiyalarına aydınlıq gətirilir.

Müasir politoloji ədəbiyyatda “informasiya siyasəti” anlayışına mövcud yanaşmalarla tanış olaq. Problemin tanınmış tədqiqatçılarından V.D. Popov dövlət informasiya siyasətinə – “*İnsanların həyat və fəaliyyətinin dövlətin və vətəndaş cəmiyyətinin maraqlarını təmin edən və onların arasında konstruktiv, yaradıcı dialoqun yaradılmasına yönəlmiş informasiyanın hazırlanması və yayılması ilə məşğul olan məxsusi bir sferası*” kimi anlayış verir[13].

K.V. Markelov dövlət informasiya siyasətini *“dövlətin cəmiyyətin informasiya-kommunikasiya sferasına təsir göstərə bilmək imkan və qabiliyyəti”* kimi müəyyənləşdirir[14]. Digər bir müəllif qeyd edir ki, *“İnformasiya siyasəti – mükəmməl bir vətəndaş cəmiyyəti formalaşdırmaq məqsədilə dövlət və ictimai institutlar tərəfindən sosial tərəqqinin informasiya-rəqəmsal texnologiyaların köməyi ilə sistemli və məqsədyönlü şəkildə proqramlaşdırılması deməkdir”*[15].

A.Q. Plitko informasiya siyasətini *“... qarşıya qoyduqları məqsədlərə nail olmaq üçün informasiya məkanının informasiyanın istehsalı və ötürülməsi vasitəsilə öz maraqlarını artikulyasiya, mübadilə və təşviqi ilə məşğul olan aktorlarının fəaliyyəti”* kimi təqdim edir[16].

---

[13] Информационная политика: учебник / под общ. ред. В. Д. Попова. М.: Изд-во РАГС, 2003, 463 с.

[14] Маркелов К.В. Общественный идеал как объект информационной политики: дис. на соиск. учен. степ. канд. полит. наук. М., 2006, 350 с.

[15] Мистюков В.В. Информационная политика современной России в контексте формирующегося гражданского общества: дис. на соиск. учен. степ. канд. полит. наук. М., 2012, с. 8

[16] Плитко А.Г. Государственная информационная политика Российской Федерации: понятие, принципы и направления реализации: дис. …канд. полит. наук. М., 2005, с. 48

Y.A. Nisneviç dövlət informasiya siyasətini *"... informasiya sferasında milli maraqları təcəssüm etdirən məqsədlərin, dövlət hakimiyyəti tərəfindən cəmiyyət və dövlətin həyat və fəaliyyətinin bütün sferalarında qarşılıqlı informasiya mübadiləsi proseslərini və belə bir qarşılıqlı əlaqəni təmin edən texnoloji prosesləri tənzimləyib təkmilləşdirmək məqsədilə idarəetmə qərarlarının strategiya və taktikası, eləcə də onların reallaşdırılma metodlarının məcmusu"* kimi nəzərdən keçirməyi təklif edir[17].

U.C. Martin informasiya siyasətinin dəqiq anlayışını verməsə də, öz fikrini bu cür ifadə edir: *"İnformasiya siyasətinin həyata keçirilməsi prosesinin əsas elementləri aşağıdakılardır: cəmiyyətin informasiya ehtiyaclarının identifikasiyası, həmin ehtiyacların təminat vasitələrinin işlənməsi, informasiya resurslarından səmərəli istifadənin stimullaşdırılması. İnformasiya siyasətinin əsas prinsipi informasiyanın əldə edilməsidir"*[18].

Dövlət informasiya siyasətinin əsas konseptlərinin təhlili tədqiqatçı İ.V. Yudinə dövlət informasiya siyasətini *"... dövlət hakimiyyəti orqanlarının vahid informasiya və mədəni-kommunikasiya məkanı çərçivəsində müasir informasiya məhsulları və texnologiyalarının işlənib hazırlanması, tətbiqi və səmərəli istifadəsi yolu ilə cəmiyyətin informasiya ehtiyaclarının aşkarlanıb təmin edilməsi ilə bağlı kompleks tədbirlərin işlənib hazırlanması istiqamətində fəaliyyəti"* kimi dəyərləndirməyə imkan vermişdir[19].

A.V. Manoylo dövlət informasiya siyasətinin prinsipial əsaslarını fərqləndirir: *"Dövlət informasiya siyasəti dövlətin və hakimiyyətin maraqlarını dövlətin hər bir şəxsin və vətəndaş cəmiyyətinin maraqlarını təmin edib qoruduğu səviyyədə reallaşdırıb qoruyur"*[20].

---

[17] Нисневич Ю.А. Информационная политика России: проблемы и перспективы. М.: Фонд «Ноосфера», 1999, 176 с.

[18] Мартин У.Дж. Информационное общество. М.: ИНИОН, 1989, 112 с.

[19] Юдин И.В. Государственная информационная политика в Российской Федерации: автореф. дис. ... канд. полит. наук / И.В. Юдин. М., 2009, 30 с.

[20] Манойло А.В. Государственная информационная политика в особых условиях: монография. М.: МИФИ, 2003, 388 с.

V.D. Popov informasiya siyasətini siyasi məqsədlərə çatmaq vasitəsi və siyasi təsir aləti kimi də nəzərdən keçirir: *"İnformasiya siyasətinin subyektləri həm dövlət və vətəndaş cəmiyyətinin maraqları, həm də şəxsi maraqları naminə informasiya vasitəsilə insanların şüur və psixikasına, davranış və fəaliyyətinə təsir etməyə qadirdirlər"*[21].

Dövlət informasiya siyasəti dövlət idarəetmə sisteminin arxivacib elementləri sırasında yer aldığı üçün nəzəri-metodoloji əsaslandırmaya çox ciddi ehtiyac duyur. Müasir siyasət elmi üçün dövlət informasiya siyasəti nisbətən yeni anlayışdır. Belə ki, həmin siyasətin tənzimlədiyi münasibətlərin özü günümüzə yaxın tarixin yaratdığı münasibətlərdir. Ona görə də ilk növbədə müasir elmin "dövlət siyasəti" anlayışına yanaşmasını, baxış bucağını müəyyənləşdirmək vacibdir.

Müəllifin fikrincə, bu gün "informasiya siyasəti" anlayışı informasiya cəmiyyətinin ən ümumişlək leksik vahidlərinə çevrilmiş "kommunikasiya" və "informasiya" anlayışlarına istinad edir. Bəzi tədqiqatçılar informasiya siyasətini anlayışın özünün siyasi-nəzəri mahiyyətindən ayıraraq *informasiya sistemləri, kompyuter və informasiya texnologiyaları ilə əlaqələndirməyə cəhd göstərirlər*[22].

Dövlət informasiya siyasətinin məzmunu – onun məqsəd və vəzifələrinin, həmçinin mövcud siyasəti formalaşdırıb həyata keçirən hakimiyyət orqanları və dövlət xadimlərinin fəaliyyətinin prinsip və istiqamətlərinin məcmusunu nəzərdə tutur.

Dövlət informasiya siyasətinin məqsədi həmin siyasətin məzmununu təşkil edən ən vacib elementlərdən biridir. *"Həmin məqsəd əlində dövlət hakimiyyəti rıçaqlarını cəmləşdirmiş subyekt tərəfindən müəyyənləşdirilir və onun əldə olunmasına dövlət müvafiq kadr, maliyyə, texniki-metodik potensialı ilə dəstək verməklə paralel, eyni zamanda özünün ideoloji proqramının*

---

[21] Попов В.Д. Информациология и информационная политика. М.: Изд-во РАГС, 2001, 423 с.

[22] Халипов В.Ф. Введение в науку власти. М.: Технологическая школа бизнеса, 2005, 318 с.

*reallaşdırılmasını da təmin etmiş olur”*[23].

Paraqrafda göstərilir ki, informasiya siyasətinin tədqiq etdiyi predmetlə yanaşı, məşğul olduğu obyekt və subyekt də mövcuddur.

Dövlət informasiya siyasətinin obyekti qismində informasiya sferasındakı münasibət və proseslərdən bəhs etmək mümkündür. Dövlət informasiya siyasətinin obyektləri sırasına çap kütləvi informasiya vasitələri (qəzet, jurnal, kitab); elektron KİV (televiziya, radio, internet); rabitə vasitələri; informasiya hüququ; informasiya təhlükəsizliyi daxildir.

Dissertasiyada göstərilir ki, fəal şəkildə sosial-siyasi həyatda iştirak edən və qarşıya qoyduqları vəzifələrə çatmaq məqsədilə informasiya-kommunikasiya texnologiyalarından istifadə edən bütün sosiai-siyasi təsisatlar və institutlar dövlət informasiya siyasətinin subyekti sayıla bilərlər.

Birinci fəslin ikinci paraqrafı **“Dövlət informasiya siyasəti: yanaşmalar, müasir konseptlər. İctimai həyata təsir dairəsi”** adlanır. Burada dövlət informasiya siyasətinə müxtəlif yanaşmalar nəzərdən keçirilir, onların ayrı-ayrı müddəaları şərh edilir. Dövlət informasiya siyasəti tədqiqatçılar tərəfindən siyasətin spesifik forması kimi fərqli mövqelərdən təhlil edilir. Rus tədqiqatçıları S.V. Konovçenko və A.Q. Kiselyov informasiyanı, ilk növbədə, insanlar tərəfindən şifahi, yazılı, şərti siqnallar, texniki vasitələr və s. üsullarla ötürülən məlumat kimi nəzərdən keçirirlər. İnformasiya anlayışına multidissiplinar yanaşma onu fərqli yönlərdən dəyərləndirməyə imkan verir. Məsələn, T.Stonierə görə, *“...informasiya mövcuddur. Və onun yaşamaq üçün hamı tərəfindən qəbul edilib-edilməməklə, anlaşılmaqla, hər hansı bir məna kəsb etməklə bağlı “fobiya”sı yoxdur. O, sadəcə, mövcuddur*”[24].

---

[23] Тризно Т. А. Государственная информационная политика Канады сквозь призму электронного правительства: теория и практика реализации : монография / Т.А. Тризно, Е.Е. Рябцева. Астрахань: Астраханский государственный университет, Издательский дом «Астраханский университет», 2014, 142 с.

[24] Stonier T. Information and the Internal Structure of the Universe: An Exploration into Information Physics. London: Springer-Verlag, 1990, p. 21

Amerikalı filosof-kulturoloq T.Roszak da problemə oxşar münasibət sərgiləyərək deyir ki, *"informasiya cəmiyyətinin nəzəriyyəçiləri üçün bizim hər hansı bir faktmı, mühakiməmi, dərin fikirmi, ali həqiqət yoxsa çirkin bir xəbərmi ötürməyimiz elə bir əhəmiyyət kəsb etmir"*[25].

Tədqiqatçı qeyd edir ki, Azərbaycanın informasiya sferasında milli maraqlarını, bu məqsədə nail olmaq üçün işlənib hazırlanmış strateji istiqamətləri, eləcə də həmin maraqları reallaşdırmaq üçün tədbirlər sisteminin ehtiva olunduğu Dövlət informasiya konsepsiyası hazırlanarkən ideoloji kontekst nəzərə alınmaq şərti ilə funksional və kommunikativ aspektlər də nəzərdən qaçırılmamalıdır. Müasir cəmiyyətdə sosial və siyasi münasibətlərin tənzimlənməsi sistemində aparıcı yerlərdən biri informasiya məkanında dövlət hakimiyyəti və idarəetmə orqanlarının vətəndaş cəmiyyəti institutları ilə birlikdə Azərbaycan vətəndaşlarına əlverişli mühitin, o cümlədən informasiya mühitinin yaradılmasına yönəlmiş bir fəaliyyət kimi dövlət informasiya siyasətinə məxsusdur.

Müəllif belə bir ümumi fikrə həmrəyliyini ifadə edir ki, hazırda sosial-texnoloji inqilabın növbəti mərhələsi – informasiya cəmiyyətinin təşəkkülü prosesi gedir. Müasir informasiya və telekommunikasiya texnologiyaları cəmiyyətin sosial strukturunda, iqtisadiyyatda, demokratiya institutlarının inkişafında baş verən dəyişikliklərə həlledici təsir göstərir.

Onların təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti təsisatlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə, insanların həyat tərzini əhatə etmişdir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanırlar. *"Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə*

[25] Roszak T.The Cult of Information: The Folklore of Computers and the True Art of Thinking. Cambridge: Lutterworth, 1986, p. 14

*şübhə doğurmur"*[26].

Paraqrafda gəlinən nəticələrdən biri ondan ibarətdir ki, informasiya siyasətinin əsas mühiti informasiya məkanıdır. Onun mahiyyəti isə tədqiqatçının yanaşmasından asılı olaraq fərqlənə bilər. İnformasiya siyasəti, hər bir dövlət kimi, Azərbaycan Respublikasının da ümumi siyasətinin vacib istiqamətlərindən biridir.

Birinci fəslin **"Azərbaycanda siyasi-iqtisadi transformasiyalar şəraitində informasiya siyasəti: məqsəd və strategiya"** adlı üçüncü paraqrafında Azərbaycanda, eləcə də digər postsosialist ölkələrində siyasi mühitin məzmununda yaşanan dəyişikliklərdə əks olunmuş ziddiyyətli və çoxvariantlı proses araşdırılır. Mürəkkəb sosial-iqtisadi, siyasi proses olan transformasiya istənilən ölkənin həyatında hər zaman mühüm dəyişikliklərlə müşayiət olunmuş, cəmiyyətlərdə bir çox istiqamətlər üzrə ənənəvi standartları radikal şəkildə dəyişdirə bilmişdir. Xüsusən də siyasi-iqtisadi müstəvidə transformasiyalar həm biri-birini tamamlayaraq yeni stereotiplərin köhnələr üzərində üstünlüyünü şərtləndirmiş, həm də inkişaf prosesinin gedişinə əsaslı surətdə təsir göstərmişdir. Müəllif siyasi-iqtisadi transformasiyalardan bəhs edərkən ilk növbədə onların hər birinin ayrı-ayrılıqda xarakterinə diqqət yetirmiş, ümumi və fərqli cəhətlərini müəyyənləşdirmiş, bir-birilərini necə tamamladıqlarını və nəticə etibarilə bütün bunların dövlət informasiya siyasətində yerini və rolunu öyrənmişdir.

Ölkədə siyasi sistemin transformasiyasını iki mərhələyə ayırmaq mümkündür. SSRİ-nin dağılması ilə 1990-cı illərin əvvəllərini əhatə edən ilk dövr milli dövlətçiliyin yaranması ilə xarakterizə olunsa da, ictimai-siyasi, geosiyasi müstəvidə baş verən hadisələr siyasi transformasiyanın xoatik şəkildə cərəyan etməsini şərtləndirmiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranması vəziyyəti daha da gərginləşdirmişdir. Bu dövrdə

[26] "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003-2012-ci illər)" təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı http://ictfund.gov.az/uploads/s/3.pdf/ 23.03.2017

ölkədə hüquqi dövlətin, demokratik siyasi sistemin yaradılması, vətəndaş cəmiyyətinin formalaşdırılması, ictimai həmrəyliyin əldə olunması, ölkənin yeni tarixi şəraitə uyğun inkişafı çoxşaxəli islahatlar strategiyasının hazırlanıb həyata keçirilməsini zərurət kimi üzə çıxarsa da, həmin vəzifələri həyata keçirə biləcək hakimiyyət yox idi.

Həmin mərhələdə Azərbaycanda belə bir tarixi missiyanın öhdəsindən gələ biləcək yeganə şəxs görkəmli dövlət xadimi, zəngin həyat və dövlətçilik təcrübəsinə malik ümummilli lider Heydər Əliyev idi və xalqın çağırışı ilə onun yenidən hakimiyyətə qayıdışı hər şeydən əvvəl tarixi zərurət kimi dəyərləndirilməlidir. Məhz onun rəhbərliyi ilə Azərbaycanda hüquqi, siyasi, iqtisadi müstəvilərdə başlanan, elmi-nəzəri əsaslara söykənən islahatlar demokratik dövlətin və vətəndaş cəmiyyətinin qurulmasını təmin etmiş, eyni zamanda siyasi sistemin transformasiyasının növbəti vacib mərhələsinin başlanmasını şərtləndirmişdir. Ulu öndər 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilərkən respublikanın demokratik yolla inkişafının zəruri olduğunu vurğulayaraq bildirmişdir: *"Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozuntularına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır"*[27].

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkənin milli inkişaf siyasətinin yeni dövrlə səsləşən əsasları qoyuldu, dövrün tələblərinə uyğun ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi tərəqqi prosesinə start verildi. Ən əsası isə ölkənin qarşısında əsas vəzifələr kimi duran demokratiyaya, komanda iqtisadiyyatından bazar iqtisadiyyatına keçid, eyni zamanda, illər boyu mövcud olmuş sovet ittifaqının bir hissəsindən milli dövlətə çevrilmək istiqamətində əməli addımlar atıldı. Ulu öndərin

---

[27] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar). Bakı: Azərnəşr,1993, I cild, 643 .

rəhbərliyi altında həyata keçirilən siyasi islahatlar ilk növbədə cəmiyyətdə konstruktiv əməkdaşlığın qurulmasını, vətəndaş həmrəyliyi prinsipinin ön plana çıxmasını şərtləndirmişdir ki, bu da Azərbaycanda yaradılan yeni, demokratik siyasi sistemi səciyyələndirən əsas məqamlardan birinə çevrilmişdir.

Təsdiqə ehtiyacı olmayan həqiqətdir ki, *azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsi, mətbuat işçiləri ilə mütəmadi görüşlər ənənəsinin yaradılması, KİV-lə bağlı problemlərə operativ və prinsipial müdaxilə ümummilli lider Heydər Əliyevin azad sözə və onun daşıyıcılarına münasibətini səciyyələndirən faktlardır*[28].

Dünya informasiya bazarında rəqabətqabiliyyətli informasiya məhsullarının istehsalı ilə bağlı problemləri əvvəlcədən görən ulu öndər Heydər Əlievin diqqət yetirdiyi məqamlardan biri məhz ölkədə yürüdülən informasiya siyasəti fonunda müasir informasiya texnologiyalarının inkişaf etdirilməsi, informasiya sənayesinin yaradılması, telekommunikasiya vasitələrinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, yerli informasiya resurslarından səmərəli istifadə edilməsi olmuşdur. Bu, Azərbaycan informasiya mühitinə kənar mənfi təsirlərin neytrallaşdırılmasında böyük əhəmiyyət kəsb etmiş, insanların vahid məqsəd uğrunda birləşməsini şərtləndirmişdir.

Tədqiqatçı qeyd edir ki, siyasi transformasiyanın əsas elementlərindən biri olan vətəndaş cəmiyyəti quruculuğunun institutları sırasında müstəqil kütləvi informasiya vasitələri öndə yer alır və bu, siyasi transformasiyanın uğurunu şərtləndirən başlıca faktorlardan hesab olunur.

2003-cü ildə Azərbaycanda milli transformasiyanın yeni mərhələsinin başlanması özünü dövlətin informasiya siyasətində də bariz surətdə nümayiş etdirmiş, azad informasiya mühitinin və müstəqil media vasitələrinin yaradılması siyasəti yeni bir vüsət

---

[28] 135 illik yol = Road of 135 years / Heydər Əliyev irsini Araşdırma Mərkəzi; red. heyəti: F. Babayev [et al.]. Bakı: Apostrof, 2010, 224 s.

almışdır.

Cəmiyyətdə yeni texnologiyaların tətbiqi ilə informasiya dövriyyəsi və mübadiləsinin daha da geniş miqyas alması informasiya siyasətini əhəmiyyətli dərəcədə zənginləşdirmişdir ki, bu da demokratik tərəqqinin vacib məqamları sırasında yer almaqdadır. Prezident İlham Əliyevin Ulu öndər tərəfindən mükəmməl şəkildə və dəqiqliklə qurulmuş bir sabit siyasi sistemi dövrün çağırışlarına cavab verəcək formada daha da inkişaf etdirməsi ölkənin siyasi-iqtisadi yüksəlişində yeni bir mərhələ açdı: *"Prezident İlham Əliyevin prezidentliyinin əsas konsepsiyası güclü iqtisadi bazanın formalaşdırılmasından ibarət idi. Bu konsepsiya kütləvi şüurun və cəmiyyətin sosiomədəni bazisinin mərhələlərlə postindustrial dəyərlər və demokratik ənənələr məcrasına transformasiyasına imkan yaratmışdır"*[29].

Müəllifin qənaətincə, hazırda Azərbaycanda informasiya siyasəti, o cümlədən dövlət informasiya siyasəti özünün formalaşma dövrünü yaşayır, müasir dünyanın sosial-siyasi və texniki reallıqlarına adekvat inkişaf istiqamətlərinin, yeni idarəetmə metod, vasitə və texnologiyalarının axtarışı prosesi davam etdirilir.

Birinci fəslin dördüncü paraqrafı **"Dövlət informasiya siyasətinin formalaşması və reallaşdırılmasının xüsusiyyətləri"** adlanır. Burada informasiya fəaliyyəti və təhlükəsizliyi siyasətinin formalaşdırılması, milli informasiya fəaliyyətinin vahid strategiyasının hazırlanması və həyata keçirilməsi kimi məsələlər nəzərdən keçirilir.

Müasir dövrdə ictimai fikrin formalaşmasını və ifadə olunmasını təmin edən təsirli vasitə kimi, KİV-in cəmiyyət həyatında rolu və əhəmiyyəti yüksəlir. Buna görə də kütləvi informasiya vasitələrinin fəaliyyətində *"...şəxsiyyət, cəmiyyət və dövlət maraqlarının tarazlaşdırılmasına və informasiya təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş hüquqi, iqtisadi, təşkilati və texnoloji tədbirlərin həyata keçirilməsi dövlətin*

---

[29] Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. "Xalq qəzeti", Bakı, 2008, 16 yanvar

*informasiya siyasətinin başlıca istiqamətlərindən biri olacaqdır*”[30].

Paraqrafda qeyd edilir ki, dövlət orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması da kütləvi informasiya vasitələrinin mühüm vəzifələrindən hesab olunur. Vətəndaşları iqtisadi islahatların gedişi, sosial məsələlərin həlli, ictimai və şəxsi həyatı tənzimləyən normativ hüquqi aktlar haqqında obyektiv informasiya ilə təmin etmək zəruridir. Ona görə də dövlətin informasiya siyasəti ilə ictimai tənzimlənmə arasında tarazlıq yaradılması, informasiya cəmiyyəti və plüralizmin inkişafı xətti daha intensiv həyata keçirilməlidir.

Müəllifin fikrincə, dövlət informasiya siyasəti öz fəlsəfəsi etibarilə Azərbaycanın informasiya sferasındakı milli maraqlarının reallaşdırılmasına yönəlməlidir. Bu məqsəd aşağıdakı vəzifələri ehtiva edir:

- informasiyanın əldə edilməsi və istifadə olunması sahəsində konstitusion hüquq və azadlıqlara riayət olunması, cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinin, ölkənin mədəni və elmi potensialının qorunub möhkəmləndirilməsi;
- Azərbaycan Respublikasının dövlət siyasəti, ölkənin və beynəlxalq həyatın mühüm sosial-siyasi hadisələri ilə əlaqədar, həmçinin vətəndaşların açıq informasiya resurslarından istifadə imkanlarının reallaşdırılması ilə bağlı rəsmi mövqeyinin informasiya təminatı;
- müasir informasiya texnologiyalarının, milli informasiya sənayesinin, informasiyalaşdırma, telekommunikasiya və rabitə vasitələri sənayesinin inkişafı, daxili bazarın ehtiyaclarının milli informasiya istehsalının məhsulları ilə təchiz edilməsi və həmin məhsulun beynəlxalq bazarlara çıxışının təmin edilməsi, həmçinin milli informasiya resurslarının toplanmasının, qorunmasının və səmərəli istifadəsinin təmin edilməsi;
- informasiya resurslarından müvafiq sanksiya olmadan istifadə cəhdlərinin aradan qaldırılması, ölkə ərazisində informasiya və telekommunikasiya sistemlərinin təhlükəsizliyinin təmin

---

[30] “Azərbaycan 2020: gələcəyə baxiş” inkişaf konsepsiyası // http://www.president.az/files/future_az.pdf; 19.02.18

edilməsi.

Paraqrafda dövlət informasiya siyasətinin reallaşdırılması ilə bağlı fəaliyyətin prioritet istiqamətləri fərqləndirilir.

Tədqiqatçı hesab edir ki, dövlət informasiya siyasətinin qüvvədə olan qanunvericiliyə əsasən həyata keçirilməsi dövlət idarəçiliyinin vəzifəsi sayılır və onun həlli müəyyən məsələlərin yerinə yetirilməsini şərtləndirir.

Dissertasiyanın ikinci fəsli **“Müstəqil Azərbaycanın dövlət informasiya siyasətinin təşəkkülü”** adlanır. Fəslin **“Dövlət informasiya siyasətinin inkişaf mərhələsi (müstəqillik dövrü: 1991-2016)”** sərlövhəli birinci paraqrafında Azərbaycanda müstəqilliyin əldə olunduğu sonrakı illərdə həyata keçirilən dövlət informasiya siyasətindən bəhs edilir.

Müəllif qeyd edir ki, 1990-cı illərin əvvəllərində SSRİ-nin tarixin arxivinə gömülməsi ilə bu nəhəng imperiyanın tərkib hissəsi olmuş Azərbaycanda təkcə ictimai-siyasi həyat dəyişməmiş, eyni zamanda, dövrün salnaməsini yaradan jurnalistikanın strukturunda mühüm yeniliklər meydana çıxmışdır. Sovet imperiyasının çöküşü ilə başlanan proseslər cəmiyyətdə medianın yeri və rolu barədə fikirlərin yenidən və nisbətən yeni əsaslar üzərində formalaşmasına, onun fəaliyyətində, iş prinsiplərində fərqli metodların tətbiqinə gətirib çıxarmışdır. Milli oyanış şəraitində jurnalistika artıq fərqli keyfiyyətlər əxz edərək ölkənin sonrakı demokratikləşmə prosesində özünü effektiv vasitə kimi göstərə bilmişdir.

1990-cı illərdən başlayaraq Azərbaycan KİV-ləri əsaslı transformasiyaya məruz qalmış və burada yeni informasiya texnologiyala-rının, sözügedən kontekstdə isə yaşanan informasiya inqilabının təsiri əsas rol oynamışdır.

Azərbaycanda informasiya cəmiyyətinin qurulmasına yönəlmiş dövlət informasiya siyasətinin formalaşdırılmasına olan tələb məhz ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə təmin edilmişdir. Azərbaycanda informasiya cəmiyyətinin qurulması məqsədilə dövlət orqanlarının əsas fəaliyyət istiqamətləri konkretləşdirilmişdir. İnformasiyanın əldə olunması, yayılması, ondan istifadə ilə bağlı ictimai münasibətlərin tənzimlənməsi yenə

də ulu öndərin fəaliyyət dövrünə təsadüf edir.

Ulu öndər Heydər Əliyevin atdığı qətiyyətli addımlar nəticəsində Azərbaycan milli mətbuatının üzərindən senzura tam götürüldü və yaranmış vəziyyət kütləvi informasiya vasitələrinin inkişafına ciddi təkan verməklə yanaşı, onların ölkə həyatında daha səmərəli iştirakını stimullaşdırdı. *"Senzuranın ləğv edilməsi və dövlətdən asılı olmayan mətbuatın təşəkkülü, habelə müxalifət KİV-lərinin sayının xeyli dərəcədə artması ictimai şüurda demokratik dəyərlərin və yeni davranış normalarının yaranmasına kömək edirdi"*[31].

Kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının davamlı şəkildə təkmilləşdirilərək qabaqcıl dünya standartlarına uyğunlaşdırılması, eyni zamanda, qanunvericilyin tələblərinin praktikada tətbiqi Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Həmin qanunlardan bəhs edərkən "Məlumat azadlığı haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "İnformasiya azadlığı haqqında" qanunları və digərlərini qeyd etmək olar. 1999-cu ilin dekabrında qəbul edilən və sonradan müxtəlif vaxtlarda beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində, həmçinin yeni texnologiyaların inkişafı ilə əlaqədar olaraq dəyişikliklər edilmiş "Kütləvi informasiya vasitələri haqqında" qanun söz və məlumat azadlığına, media vasitələrinin və jurnalistlərin müstəqilliyinə təminat verir, mətbuat azadlığını məhdudlaşdıran tədbirlərin tətbiqini qadağan edir.

Azərbaycan mediasının inkişafında yeni dövr Ulu öndər Heydər Əliyevin zəngin irsini, siyasi ənənələrini müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirən, eyni zamanda bu siyasəti yeni yanaşmalarla daha da zənginləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Hüquqi, demokratik dövlət quruculuğu prosesinin daha geniş və intensiv vüsət almasına xüsusi diqqət yetirən dövlət başçısı ölkənin, cəmiyyətin həyatında

---

[31] Mehdiyev R.Ə. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: "Şərq-Qərb", 2008, 792 s.

kütləvi informasiya vasitələrinin rolunu yüksək dəyərləndirərək demokratik, müstəqil medianın inkişafına əlverişli şərait yaradılmasını öz siyasətinin prioritet istiqamətlərindən biri olaraq müəyyən etmişdir. Cəmiyyətdə başlanan yeni modernləşmə prosesi mediaya da əsaslı surətdə təsir göstərmişdir.

Dövlət başçısının media ilə bağlı həyata keçirdiyi siyasət yeni dövrün çağırışlarına cavab verməklə yanaşı, siyasi sistemin bu seqmentində bir sıra yeniliklərin də əsasını qoymuşdur. Əldə edilən nəticə isə ondan ibarətdir ki, bu gün Azərbaycan mediası bu və ya digər hadisələrə münasibətdə ictimai fikrin formalaşdırılmasında çox ciddi rol oynayır.

Fəslin **"KİV-in dövlət informasiya siyasətinin formalaşması və həyata keçirilməsində rolu"** adlanan ikinci paraqrafında dövlətin informasiya siyasətinin formalaşmasında KİV-in rolu müəyyən olunur, media və siyasətin qarşılıqlı təsiri araşdırılır. KİV ən vacib siyasi problemlərlə bağlı ictimai fikri formalaşdırmaqla geniş xalq kütləsinin siyasi cəhətdən sosiallaşmasında əsas aktorlardan biri kimi çıxış edir. Mətbuat, radio, televiziya, son illərdə isə internet siyasi proseslərin ayrılmaz, real hissəsinə çevrilmişdir. Sözügedən kontekstdə informasiya axını üzərində nəzarət və onun idarə edilməsi vacib siyasi məsələlərdən biri kimi çıxış etməkdədir. *"Çünki KİV-ə nəzarət obyektiv olaraq siyasi prosesə müdaxilə etmək və onun inkişafına təsir rıçaqlarını əldə saxlamaq deməkdir"*[32].

Azərbaycanın timsalında dövlətin demokratik mahiyyətini və quruluşunu ifadə edən indikatorlardan biri məhz informasiya mənbələrinin plüralizmi, KİV-in müxtəlifliyidir. Məhz belə bir müxtəliflik ümumvətəndaş həmrəyliyi və məsuliyyətini formalaşdırmaqla ictimai həyatın və ictimai rəyin fərqli çalar və axınlarını təcəssüm etdirir.

Qeyd olunur ki, bu gün müasir siyasi prosesi KİV-siz təsəvvür etmək qeyri-mümkündür. Media siyasiləşdiyi kimi, tam əksi – siyasətin də mediallaşması prosesi baş verir. Və media vasitəsilə

---

[32] Тургаев А.С., Хренов А.Е. Политология в схемах и комментариях, СПб.: Питер, 2005, 304 с.

oxucuya, dinləyiciyə, tamaşaçıya ünvanlanan siyasət daha praktiki və real təsir bağışladığı üçün hakim sinif həmişə KİV üzərində nəzarəti əlində saxlamağa çalışır.

Fransız sosioloqlorı P.Burdye və P.Şampan kütləvi informasiya vasitələrini ictimai fəallığın çox qüvvətli kanalı kimi tədqiq edirlər. Vətəndaşların ümummilli KİV-lərə müraciəti, müəlliflərin fikrincə, insanların siyasi fəallığının, bütövlükdə vətəndaşlığın formalaşdırılmasının vasitələrindən biridir. Bununla belə, siyasi proseslərin "mediallaşdırılması" gətirib ona çıxarmışdır ki, artıq siyasi çıxış və bəyanatların əksəriyyəti siyasi fəallığı artırmağa, siyasi proseslərin səmtini müəyyənləşdirməyə deyil, məhz media tərəfindən tirajlanmağa hesablanmışdır.

İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan cəmiyyətində də KİV informasiya dövriyyəsində həlledici rola malikdir. Bu prosesin ilkin mərhələsi informasiyanın toplanması və emalı ilə şərtlənir. İnformasiya isə müxtəlif meyarlar üzrə toplanır. Bir qayda olaraq informasiya istehlakçıları üçün mövzuların prioritetliyi və cəlbediciliyi, qeyri-ordinarlıq, faktların yeniliyi, siyasi nailiyyətlər əsas faktor kimi çıxış edir. İnformasiyalar KİV-in məqsəd və vəzifələrinə, jurnalistin və media sahiblərinin iqtisadi, siyasi, ideoloji baxışlarına uyğun olaraq təhlil edilir. Yekun məqsəd informasiyanın yayılması və ictimai rəyin formalaşdırılmasıdır.

Müəllifin qənaətinə əsasən, KİV-in siyasi təsir qüvvəsini şərtləndirən əsas elementlərdən biri cəmiyyətin və hökumətin diqqət mərkəzində yer alan mövzuların müəyyən olunaraq müzakirəyə çıxarılmasıdır. Bu zaman əsas məqam cəmiyyət üçün daha aktual sayılan problemin müzakirə predmetinə çevrilməsidir. Çünki praktika göstərir ki, çoxsaylı problemlər və onların müzakirəsi ilə eyni vaxtda məşğul olmaq mümkün deyil.

Azərbaycan rəhbərliyi söz və mətbuat azadlığı, fikir plüralizmi, ictimai həyatın ən müxtəlif sferalarına aid olan informasiyaların əlçatanlığını vətəndaşların fundamental hüquqları kimi qiymətləndirərək informasiya siyasəti sahəsindəki münasibətlərin tənzimlənməsinin hüquqi vəsiləsi kimi çıxış edən qanunvericilik bazasının təkmilləşdirilməsini həmişə diqqətdə

saxlayır. Bu cür münasibətin məntiqi nəticəsidir ki, son illərdə KİV sahəsində aparılan dövlət siyasətinin dəyərləndirilməsində müsbət tendensiya özünü daha qabarıq göstərməyə başlamışdır. Belə bir tendensiya özünü yalnız qanunvericilik "təsərrüfatının" inkişafda olan həyatın tələblərinə uyğun dəyişməsində deyil, kifayət qədər üzdə olan maddi "preferensiyalarda" da ifadə edir.

İkinci fəslin üçüncü paraqrafı **"KİV sahəsində dövlət informasiya siyasəti"** adlanır. Burada, bütövlükdə, vahid ideoloji xəttin təşəkkülü, formalaşması və inkişafını qidalandıran münbit mənbə və onun həyata keçirilməsini təmin edən universal mexanizm olan dövlət informasiya siyasəti bütöv şəkildə təfsir olunur.

Müəllif müasir demokratiya şəraitində jurnalistikanın cəmiyyətin mühüm sosial institutu hesab edildiyi qənaətindədir. Kütləvi informasiya jurnalistikanın öz sosial rolunu yerinə yetirməsi üçün əsas alət sayılır. O, jurnalistika ilə auditoriya arasında mühüm vasitəçi rolunu yerinə yetirir. Münasibətlərin bu sferasını dövlət informasiya siyasətinin istiqamətlərindən biri sayılan KİV sahəsində dövlət siyasəti tənzimləyir. Beləliklə, biz KİV sahəsində demokratik dövlət siyasətini cəmiyyətdə informasiya nizamının təminatında mühüm rol oynayan jurnalistikanın demokratiyanın sosial institutu kimi formalaşması və inkişafı ilə əlaqədar dövlət hakimiyyəti subyektlərinin ideya, baxış və təsəvvürlərinin sistemi kimi, eləcə də mövcud qanunlar çərçivəsində və demokratik düşüncəyə uyğun olaraq KİV sisteminin müxtəlif münasibətlərini əhatə edən subyektlərin müvafiq məqsədyönlü fəaliyyəti kimi nəzərdən keçiririk.

KİV sahəsində dövlət informasiya siyasəti – cəmiyyətdə informasiya qaydasının bərqərar edilməsində böyük rola malik olan jurnalistikanın demokratiyanın sosial institutu kimi formalaşması və inkişafını qarşısına məqsəd qoymuş dövlət informasiya siyasətinin aparıcı istiqamətlərindən biridir. Belə bir siyasət dövlət hakimiyyəti subyektlərinin demokratik cəmiyyətdə jurnalistikanın necə olması ilə bağlı ideya, baxış və təsəvvürlərinin sistemi, habelə dövlət orqanları və strukturlarının belə bir sistemə uyğun gələn

məqsədyönlü fəaliyyəti kimi mövcuddur. KİV sisteminə aid tənzimlənməyə ehtiyacı olan bütün prinsipial münasibətləri əhatə etməklə KİV sahəsində dövlət informasiya siyasəti, bütövlükdə, jurnalist fəaliyyətinə dövlət müdaxiləsinin mümkün çərçivə və hüdudlarını da müəyyənləşdirməlidir.

Paraqrafda göstərilir ki, müasir mərhələdə KİV sahəsində dövlət siyasəti ən müxtəlif formalarda təzahür edə bilir: ilk növbədə qanunvericilik təşəbbüsləri, nəzarətedici orqanların fəaliyyəti, inzibati qərarlar, maliyyə dəstəyi, dövlət mükafatları, təltiflər və s. Həmin siyasətin əsasını isə, bütövlükdə, jurnalist sistemindəki mövcud münasibətləri tənzimləyən normativ sənədlər təşkil edir. Belə ki, KİV haqqında dolğun, ağıllı və işlək qanunvericilik aktları media sahəsində həyata keçirilən dövlət siyasətinin səmərəliliyinə zəmanət verən əsas amillərdən biridir.

Müəllifin fikrincə, dövlət informasiya siyasəti informasiya münasibətləri ilə əlaqədar çox geniş məsələlər dairəsini əhatə edir ki, burada da bizi konkret olaraq bir istiqamət – KİV sahəsində dövlət informasiya siyasəti maraqlandırır.

KİV-ə münasibətdə dövlət informasiya siyasətinin əsas vəzifəsi KİV-in fəaliyyətində şəxsiyyət, cəmiyyət və dövlətin maraqlarının tənasübünü təmin edən hüquqi, iqtisadi və təşkilati tədbirlərin hazırlanmasından ibarətdir. Bunun üçün dövlət mətbuatına dəstəklə bağlı kompleks məsələlərin həlli və qeyri-dövlət KİV-inə münasibətdə konkret mövqenin işlənib hazırlanması ilə bağlı tədbirlər nəzərdən keçirilməlidir. Azərbaycanda bu sahədə müsbət təcrübə mövcuddur.

KİV sahəsində müasir dövlət informasiya siyasətinin problem və perspektivlərinin analizi, eləcə də nüfuzlu mütəxəssislərin verdikləri proqnozlar müəllifə belə bir rəyə gəlməyə əsas verir ki, Azərbaycan mediasferasının inkişafının vahid qayda və istiqamətləri hazırlanmalıdır. KİV sahəsində dövlət informasiya siyasəti plüralist və azad mətbuatın təşəkkülü, açıq, konstruktiv və tolerant dialoqun qurulması, informasiya mübadiləsində iştirak edən bütün subyektlərin sosial məsuliyyətinin artırılması, şəxsiyyətin, cəmiyyətin və dövlətin kütləvi informasiya təhlükəsizliyinin

gücləndirilməsi istiqamətində ortaya çıxan məsələləri həll etməyə qadirdir.

Tədqiqat işində müəllif KİV sahəsində dövlət informasiya siyasətinin optimallaşdırılmasının Azərbaycanın informasiya inkişafının dəqiq strategiyasını müəyyənləşdirməyə kömək edəcəyini söyləyən bəzi mütəxəssislərin fikri ilə razılaşaraq hesab edir ki, belə bir seçim, heç şübhəsiz, siyasi qərardır və bu, ölkənin ali siyasi rəhbərliyi tərəfindən qəbul edilməlidir.

Fəslin **“Milli maraq və xəbər siyasəti: ictimai rəyin formalaşması və informasiya təhlükəsizliyi kontekstində”** adlanan dördüncü paraqrafında “milli maraqlar” anlayışına aydınlıq gətirilir və Azərbaycan dövlətinin milli maraqların təmin edilməsinə yanaşmaları araşdırılır. Müəllifin fikrincə, mövcud şəraitdə Azərbaycan Respublikasının milli maraqları fərdin, cəmiyyətin və dövlətin iqtisadi, siyasi, sosial, beynəlxalq, informasiya, hərbi, sərhəd, ekoloji, eləcə də digər həyat əhəmiyyətli sahələrdə maraqlarının balanslaşdırılmış məcmusu kimi çıxış edir. Paraqrafda informasiya sahəsində Azərbaycanın milli maraqlarının bir sıra istiqamətləri fərqləndirilir.

Azərbaycan dövləti milli maraqlarının təmin edilməsinə üçlü trayektoriyadan – həm daxili, həm regional, həm də qlobal kontekstdən yanaşır. Bu gün ölkəmizin təhlükəsizliyinin təmin edilməsində milli maraqlar mühüm rol oynayır. Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olmaqla aşağıdakılardır:

• dövlətin müstəqilliyinin və ərazi bötövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;

• Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;

• vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;

• demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı,

qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;

• beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi;

• bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin oluması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması və s.

Tədqiqatçının qənaətincə, milli maraqlardan bəhs edərkən onun reallaşdırılması vasitələrini də nəzərdən keçirmək lazım gəlir. Bunun üçün dövlətin əlində kifayət qədər ciddi imkanlar mövcuddur. Cəmiyyətə böyük təsir gücünə malik olan medianın rolu ayrıca qeyd olunmalıdır. Real vəziyyət göstərir ki, qlobal miqyasda təsir dairəsinə malik sosial şəbəkələrin də mövcud olduğu, informasiyanın isə transmilli xarakter daşıdığı indiki dövrdə milli maraqların media üzərindən ön plana keçməsi məxsusi əhəmyyət kəsb edir. Müsbət nəticəyə nail olmaq üçün media vasitələri milli maraqları öz fəaliyyətlərində hər şeydən üstün tutmalı, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməyi bacarmalıdırlar.

Tədqiqat işində göstərilir ki, Azərbaycan mediası öz şərəfli tarixi ənənələrinə sadiq qalaraq, bütün dövrlərdə olduğu kimi, indi də mənsub olduğu xalqına və dövlətçiliyinə xidmət missiyasını ləyaqətlə davam etdirir. Milli maraqların gerçəkləşməsində xəbər siyasətinin və onun əsas daşıyıcılarından olan medianın müstəsna rolu vardır. Müasir dövrdə xəbər siyasəti, onun formalaşması, həyata keçirilməsi, bu zaman istənilən nəticənin əldə olunması hər bir ölkə üçün xüsusi aktuallıq kəsb edir.

Paraqrafda informasiya təhlükəsizliyinin insanlar arasında ünsiyyət vasitələri meydana çıxdıqdan sonra yaranmış obyektiv kateqoriyalardan sayıldığı vurğulanır. Bu, informasiya münasibətlərində olan subyektlərin qarşılıqlı əlaqə infrastrukturunun təbii, yaxud süni xarakterli, təsadüfi və ya məqsədyönlü hücumlardan

qorunması və informasiyanın özünün müdafiəsi vəziyyətidir.

Hazırda media-cəmiyyət-dövlət üçbucağında münasibətlər xalqın, dövlətin taleyi baxımından olduqca əhəmiyyətli vasitəyə çevrilmişdir və bu münasibətlər sistemində xəbər siyasəti artıq idarəetmənin həyata keçirilməsində mühüm funksional vahid qismində özünü göstərir. Medianın iştirakı olmadan hansısa məsələ ətrafında ictimai rəy yaradılması mümkünsüzdür. Amma bu ictimai rəyin informasiya təhlükəsizliyi şəraitində yaradılması da vacibdir, çünki bunun əksi xaos deməkdir.

Müəllifin qənaətincə, milli təhlükəsizliyin təmin edilməsinin əsas tərkib elementlərindən biri qismində məhz hərtərəfli informasiya təminatının çıxış etdiyini söyləmək mümkündür. Bu mənada, dövriyyədə olan informasiyanın məzmunu, keyfiyyəti milli maraqlar, təhlükəsizlik baxımından proqnozlaşdırılmalı, müvafiq xəbər siyasəti həyata keçirilməlidir. Bu, ilk növbədə dövlət mənafeyinin, milli maraqların təmin edilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Elmi işin üçüncü fəsli **"İnformasiya təhlükəsizliyi – milli təhlükəsizliyin tərkib hissəsi kimi"** adlanır. Fəslin **"Milli təhlükəsizlik: anlayışı, mahiyyəti, struktur elementləri"** sərlövhəli birinci paraqrafında təhlükəsizlik anlayışına aydınlıq gətirilir, onun mahiyyəti açıqlanır, elementləri barədə məlumat verilir. Müəllif təhlükəsizliyin növlərini təqdim edir, fərqli xüsusiyyətlərini və həmçinin, təmin olunmasının əsas prinsiplərini təhlilə çəkir.

Siyasi sistemin, ictimai münasibətlərin xarakterindən asılı olaraq cəmiyyətin dövlətdə rolu və yeri dəyişkən ola bilir. Millət (beynəlxalq hüquqda millət dövlət anlayışının ekvivalenti kimi çıxış edir – X.N.) üçün ekstremal situasiyalarda təhlükəsizlik səviyyəsi özünü daha aydın büruzə verir. Bir qayda olaraq totolitar və avtoritar rejimli ölkələrdə ön plana şəxsiyyətin təhlükəsizliyi üzərindən dövlətin təhlükəsizliyi keçir. Demokratik cəmiyyətlərdə isə ön planda şəxsiyyətin təhlükəsizliyi, onun hüquq və azadlıqlarının qorunması durur. Dövlətin təhlükəsizliyi kimi strateji bir məqsəd siyasi idarəetmə mexanizmi və ictimai-siyasi qüvvələrin

fəaliyyətinin düzgün əlaqələndirilməsi, şəxsiyyət və cəmiyyətin təhlükəsizliyi, siyasi sistemə daxil olan qurum, təşkilat və institutların hüquq və əxlaq normaları kompleksinin formalaşdırılması yolu ilə əldə edilir.

Paraqrafda qeyd edilir ki, hazırda sürətli iqtisadi islahatlar mərhələsini yaşayan Azərbaycan dövləti heç bir xarici müdaxilə və təsir olmadan öz daxili həyatını qurmaq, idarə etmək, daxili sabitliyini qorumaq, ölkənin strateji inkişafını, konstitusiya quruluşunu təmin etmək vəzifəsini uğurla həyata keçirir.

Dövlət başçısı İlham Əliyevin fəaliyyəti həm də Azərbaycanın milli təhlükəsizliyinin fundamental şəkildə qorunmasına, milli təhlükəsizlik komponentlərinin vahid sistem halına gətirilməsinə yönəlmişdir. Təcrübə göstərir ki, milli təhlükəsizliyin etibarlı təminatı cəmiyyət həyatının ən müxtəlif sahələri ilə sıx bağlı olub ümumi vəhdət təşkil edir. Müstəqil dövlət olaraq Azərbaycanın milli maraq və təhlükəsizliyi də region və qlobal dünya maraqlarından ayrıca, təcrid olunmuş şəkildə təmin oluna bilməz. Bu reallıqdan çıxış edən dövlət başçısı sürətlə inkişaf edən, müxtəlif sahələrdə ciddi uğurlara imza atan müstəqil respublikamızın milli təhlükəsizliyinin qorunmasını vacib məsələ kimi önə çəkmişdir. Dövlət başçısı haqlı olaraq bildirir ki, xalqın firavan, azad və təhlükəsiz yaşaması baxımından müasir dövrdə milli təhlükəsizlik amilinə xüsusi diqqət yetirilməli, bu istiqamətdə mühüm addımlar atılmalıdır.

Prezident İlham Əliyevin 23 may 2007-ci ildə imzaladığı *"Azərbaycan Respublikasının Milli Təhlükəsizliyik Konsepsiyası"*nda milli təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin olunmasına xüsusi yer ayrılmış, bu sahədə fəaliyyətin konkret istiqamətləri göstərilmişdir. Avropa və Avroatlantik strukturlarına inteqrasiya, beynəlxalq təhlükəsizliyə töhfə, beynəlxalq təşkilatlarla əməkdaşlıq, regional və ikitərəfli münasibətlər, region və qeyri-region ölkələri ilə əlaqələr bu sırada xüsusi yer almışdır[33].

Müəllif qeyd edir ki, milli təhlükəsizlik mürəkkəb,

---

[33] Azərbaycan Respublikasının Milli Təhlükəsizliyik Konsepsiyası // http://eqanun.az

çoxsəviyyəli, dinamik sistemdir. Onun təməlində sosial subyektlərin - şəxsiyyət, cəmiyyət və dövlətin baza münasibətləri durur. Bu sistem bir çox amillərin – tarixi, coğrafi, etnik, demoqrafik, sosial-siyasi, iqtisadi, mədəni, dini amillərin təsiri altında formalaşır.

Tədqiqat işində bir daha vurğulanır ki, Azərbaycanın təhlükəsizlik problemi, onun təmin edilməsi yolları və vasitələri, qlobal və yerli təhlükəsizlik maraqlarının uzlaşdırılması, region dövlətlərinin təhlükəsizlik siyasəti dövlət başçısı İlham Əliyevi ciddi şəkildə düşündürən məsələlərdəndir.

Fəslin **"Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının əsas istiqamətləri və informasiya sferasında milli maraqlar"** adlı ikinci paraqrafında milli təhlükəsizlik konsepsiyasının üç əsas istiqaməti təhlil edilir və Konsepsiyanın Azərbaycanın təhlükəsizlik mühiti ilə yanaşı, beynəlxalq və regional təhlükəsizlik kontekstində milli maraqlarının müdafiəsini, milli təhlükəsizliyə olan təhdidlərin aradan qaldırılmasını (terrorçuluq, narkomaniya və s.), milli təhlükəsizliyin təmin olunması sistemini, onu təmin edən qüvvələr və dövlət orqanlarını, siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, təhsil, elm, mədəniyyət, mənəviyyat sahələrində təhlükəsizliyin təmin olunması yollarını göstərdiyi qeyd olunur.

Azərbaycan Respublikası öz milli maraqlarını təmin etməklə həm də milli təhlükəsizliyini qoruyur. Dövlətin əsas vəzifəsi ölkəmizdə yaşayan bütün xalqların və milli-etnik birliklərin mədəni-mənəvi muxtariyyətini, həyat tərzini, təhlükəsizliyini qorumaqdır. Xarici və daxili siyasət vasitələri dövlətimizin milli maraqlarına və prioritetlərinə cavab verən prosesləri tənzimləmək, iqtisadiyyatı inkişaf etdirmək, Azərbaycan millətinin vahidliyini möhkəmləndirmək zəruri məsələlərdəndir. *"Milli maraqlar dedikdə hər bir dəyər, din, cəmiyyətin və dövlətin uzunmüddətli təməl maraqları nəzərdə tutulur"*[34].

İddiaçı qeyd edir ki, milli təhlükəsizlik strategiyası milli maraq və dəyərlərin qorunmasına əsaslanır. Azərbaycanın milli

---

[34] Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: Aypara 3, 2009, 328 s.

təhlükəsizliyi güclü prezident hakimiyyəti və güclü dövlət tələb edir. Yalnız cəmiyyətin bütün təbəqələrinin və vətəndaşların maraqlarının nəzərə alındığı təqdirdə milli həmrəylik formalaşa bilər.

Azərbaycan Respublikasının Milli təhlükəsizliyinin əsas istiqamətlərindən biri ölkəmizin Avropa və Avroatlantik strukturlarına inteqrasiyasıdır. Azərbaycan Avropa və Avroatlantik strukturlarına inteqrasiya olunmaqla Avropanın təhlükəsizlik arxitekturasında fəal iştirak etmiş olur, Avropanın təhlükəsizlik kompleksinin tərkib hissəsinə çevrilir.

Azərbaycanın Avropa qurumları ilə sıx iqtisadi əməkdaşlıq və tərəfdaşlığı Qafqazda təhlükəsizliyin yaradılmasına Avropa liberal-demokratik dəyərlərinin yayılmasına öz təsirini göstərməkdədir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin başlıca istiqamətlərindən biri hərbi müdaxiləni aradan qaldıraraq dövlətin ərazi toxunulmazlığının və xalqın təhlükəsizliyinin təmin olunmasıdır. Azərbaycan Respublikasının Hərbi doktrinasında göstərilir ki, müdafiə siyasəti Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin tərkib hissəsidir.

Diqqətəlayiq faktdır ki, informasiya sferasının dövlət idarəet-mə-sinin strategiya və taktikasında milli maraqların üstünlüyü aparıcı xətt kimi keçir. Bunu ölkə Prezidenti İlham Əliyev çıxışlarında çox vacib element kimi qabardır. Digər tərəfdən, informasiya siyasəti mahiyyət etibarilə qarşılıqlı informasiya proseslərinin nizamlanmasına və təkmilləşdirilməsinə xidmət edir ki, bu da nəinki transmilli əhəmiyyətli nəqliyyat kommunikasiyalarının, eləcə də beynəlxalq informasiya trafiklərinin qovuşduğu məkanda yerləşən Azərbaycan üçün müstəsna geosiyasi dividend deməkdir.

Paraqrafda göstərilir ki, informasiya sferasında maraqlarını təmin etmək üçün dövlət öz vətəndaşlarının, demokratik cəmiyyətin və güclü dövlətinin informasiya tələbatlarını təmin etməli, milli informasiya ehtiyatlarından və vasitələrindən səmərəli istifadə etməli, müasir İKT-ni tətbiq etməklə modern informasiya vasitələri yaratmalı, özünün informasiya sistemi təhlükəsizliyini möhkəmləndirir.

Bu fəslin üçüncü paraqrafı **"İnformasiya təhlükəsizliyi və siyasi təhlükəsizlik" adlanır.** Burada "informasiya təhlükəsizliyi" anlayışına müxtəlif yanaşmalar təqdim edilir və bu təhlükəsizliyi təmin edən, informasiyanın qorunması sahəsində fəaliyyətə nəzarət edən dövlət orqanları barədə məlumat verilir.

İnformasiya təhlükəsizliyi anlayışı "informasiya", "informasiya sferası" və "təhlükəsizlik" anlayışlarının vəhdətindən ibarətdir. Elmi-siyasi ədəbiyyatda informasiyanın sahə mənsubiyyətinə görə 20-dən artıq növü fərqləndirilir (hüquqi, elmi, siyasi, maliyyə, kommersiya, tibbi informasiya və s.). Əslində, bütün informasiyaların qorunması da vacib deyildir. Bəzi informasiyaları konfidensial məlumatlar və dövlət sirri olaraq təsnifləşdirmək mümkündür.

İnformasiya cəmiyyəti və informasiyalaşma fenomeni ilə sıx bağlı olan informasiya təhlükəsizliyi problemini əcnəbi alimlərdən *D. Bell*[35], *E. Toffler*[36] və başqaları tədqiq etmişlər.

Elmi ədəbiyyatda informasiya təhlükəsizliyinə belə bir təriflə də tanış olmaq mümkündür ki, informasiya təhlükəsizliyi informasiya mühitində şəxsiyyətin, cəmiyyətin, dövlətin formalaşması, təşəkkülü və inkişafını təmin edən həyati vacib maraqların xarici və daxili təhdidlərdən qorunması vəziyyətidir. Qorunmaq dedikdə hüquqi elmi-texniki, xüsusi təşkilati tədbirlərin məcmusu nəzərdə tutulur. Bununla da informasiyaların qorunması qanunvericilik, məhkəmə və icra hakimiyyəti, ictimai təşkilatlar, birliklər və vətəndaşların köməyilə həyata keçirilir.

"İnformasiya təhlükəsizliyi" anlayışına müxtəlif baxışlar, yanaşmalar mövcuddur. Bəziləri informasiya təhlükəsizliyni ümumi təhlükəsizliyin tərkib hissəsi kimi nəzərdən keçirir, onu ümumi təhlükəsizliyin seqmentlərindən biri hesab edir, "kompyuter təhlükəsizliyi", "şəbəkə təhlükəsizliyi", "məlumat təhlükəsizliyi" və s. kimi anlayışlarla paralel istifadə edirlər. Lakin informasiya təhlükəsizliyi daha geniş anlayışdır.

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin

---

[35] Белл Д. Социальные рамки информационного общества // Новая технократическая волна на Западе. М.: Прогресс, 1986, 342с.

[36] Тоффлер, Э. Шок будущего. М.: АСТ, 2008, 560 с.

qorunması sahəsində dövlət siyasətinin əsas məqsədi şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinə təhdidlərin qarşısının alınması və milli maraqların təmin olunmasından ibarətdir.

Paraqrafda informasiya təhlükəsizliyinin Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında əsas yerlərdən birini tutduğu vurğulanır. Ölkəmizin milli təhlükəsizlik sistemində informasiya təhlükəsizliyinin yeri onunla müəyyənləşdirilir ki, dövlət informasiya siyasəti informasiya təhlükəsizliyi vasitəsilə milli təhlükəsizliyin təmin olunmasını dövlət siyasətinin prioritet istiqaməti səviyyəsinə qaldırır.

Müasir dövrdə elmi ədəbiyyatda və siyasi təhkiyədə tez-tez səslənən "siyasi təhlükəsizlik" anlayışına isə müxtəlif sosial-siyasi proseslərin nəticəsi kimi fərqli aspektlərdən yanaşmaq mümkündür. Həmin aspektlərdən biri siyasi təhlükəsizliyin ölkənin və vətəndaşların siyasi maraqlarının təmin olunması üçün dövlətin və cəmiyyətin həyata keçirdikləri tədbirlərin nəticəsi kimi ifadə olunur. Digər yanaşmaya görə, siyasi təhlükəsizlik – siyasi və sosial gərginliyin aradan qaldırılması və yaxud azaldılması ilə bağlı siyasi və hüquqi problemlərin həlli deməkdir. Tədqiqatçı tərəfindən bu paraqrafda "siyasi təhlükəsizlik" anlayışının iki aspekti – daxili və xarici siyasi təhlükəsizlik aspektləri nəzərdən keçirilmişdir.

Siyasi ensiklopediyada *"siyasi təhlükəsizlik" anlayışı dövlət quruluşunun və konstruktiv siyasətin təmin olunmasına, siyasi dövlət quruluşunun konstitusion legitimliyinin qorunub saxlanmasına yönəlmiş tədbirlər kompleksi"*[37] kimi səciyyələndirilir.

Buna görə də siyasi təhlükəsizliyi T.E. Şubert *"konstitusiya təhlükəsizliyi"* kimi də səciyyələndirir[38].

Siyasi təhlükəsizlik üçün ən ciddi xarici təhdid forması müharibədir, başqa bir dövlət tərəfindən edilən təcavüzdür. Sosial gərginlik, kütləvi ixtişaşlar, ekstremizm, terrorçuluq, münaqişələr, separatçılıq və vətəndaş müharibəsi kimi hadisələri isə daxili təhdidin müxtəlif formaları qismində fərqləndirmək mümkündür.

---

[37] Политическая энциклопедия. М.: Мысль, т.1, 2000, 750 с.

[38] Шуберт Т.Э. Национальная безопасность России: конституционно-правовые аспекты. М.: Право и закон, 2001, 176 с.

Siyasi təhlükəsizliyin möhkəmləndirilməsinin daxili şərtlərinin təsnifat dairəsinə xalqın öz ideallarını və dəyərlərini qorumaq, konstitusiya quruluşunu, sabitlik faktorunu, dövlət təsisatlarını gücləndirmək, vətəndaş sülhünü, milli barışığı, ərazi bütövlüyünü təmin etmək kimi mühüm elementlər daxildir. Hər bir dövlət öz siyasi təhlükəsizliyini daha da möhkəmləndirmək üçün siyasi və dini ekstremizmin hər cür təzahürlərinə qarşı, sosial və etnik münaqişələrə, terrorizmə qarşı kəskin və amansız mübarizə aparmalıdır.

Tədqiqatçı hesab edir ki, beynəlxalq müstəvidə siyasi təhlükəsizlik Azərbaycanın suverenlik və ərazi bütövlüyünün bərpası, dünya siyasi arxitekturasına inteqrasiya olunması, insan hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması, beynəlxalq hüququn pozulmasına, siyasi konfliktlərin həllində ikili standartlara qarşı mübarizənin gücləndirilməsinin təmin edilməsi tədbirlərini nəzərdə tutur.

Üçüncü fəslin dördüncü paraqrafı – **"İnformasiya təhlükəsizliyi məsələlərinin media kontenti. İnformasiya müharibəsi şəraitində medianın davranışı"** milli informasiya məkanının təhlükəsizliyinin qorunması məsələlərindən bəhs edir.

Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlərin təməli ümummilli lider Heydər Əliyevin 2003-cü il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" ilə qoyulmuşdur. Milli Strategiyada konkret olaraq göstərilmişdir ki, *informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etməklə ölkənin demokratik inkişafına kömək etmək və informasiya cəmiyyətinə keçidi təmin etmək mümkündür*[39].

Müəllif Azərbaycan hökuməti tərəfindən informasiya cəmiyyətinin, yeni texnoloji və innovativ biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması üçün bir sıra mühüm qərarlar qəbul edildiyini, milli qanunvericilik bazasının xeyli təkmilləşdirildiyini

[39]Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya. http://president.az/articles/11312

vurğulayır. Tədqiqatçı belə bir nəticəyə gəlir ki, qlobal informasiya mühitinin yarandığı müasir dövrdə mətbuatın səyləri nəticəsində informasiya cəmiyyətdə əsas strateji resursa çevrilmiş, onun rolu əhəmiyyətli dərəcədə artmışdır. Kütləvi informasiya vasitələri dövlət idarəetmə sistemində mühüm vasitə olaraq xarici və daxili siyasətin formalaşmasında, həyata keçirilməsində, hökumətlə xalqın qarşılıqlı əlaqələrində, cəmiyyətin demokratik idarə olunmasında vacib rol oynayırlar. KİV cəmiyyətin inkişaf dinamikasına təsir etmək və onu dəyişdirmək gücünə malikdir. Bu şəraitdə medianın strateji konseptinə uyğun olaraq dövlətin milli maraqlarının qorunması, milli birliyin və vətəndaşların mənafeyinin qorunması əsas fəaliyyət planını təşkil etməlidir.

Əsərdə qeyd olunur ki, Azərbaycan mediasının informasiya müharibəsindəki davranışı bəzi kiçik nöqsanlar istisna olmaqla, peşəkarlığa və milli maraqların qorunmasına, operativliyə, daha məsuliyyətli araşdırmalara əsaslanaraq müsbət xarakterizə olunmalıdır. Mediamız ictimaiyyətin informasiya ehtiyaclarını kifayət qədər ödəmək və informasiya zənginliyini təmin etməklə düşmən tərəfin çaşdırıcı xəbərlərinin tamamilə arxa plana keçməsinə, vətəndaşların həqiqi xəbər almalarına nail olmuşdur.

Müəllif hesab edir ki, Azərbaycan mediası dövlət maraqlarından çıxış edir, ümummilli məsələlərlə bağlı informasiya müharibəsində dövlət cəbhəsində öz vəzifə borcunu yerinə yetirir. Mediamız vətənə qarşı yönəlmiş təhdidlərin, böhtan və qərəzli məlumatların yayılmasının qarşısının alınmasında prinsipial mövqe göstərir.

Azərbaycan dövləti milli maraqlara söykənən müstəqil siyasət yürüdür, regionda artan nüfuzu ilə proseslərə təsir edir. Ölkəmiz dini ayrı-seçkiliyə, ksenofobiyaya göz yuman bəzi Qərb dövlətlərindən fərqli olaraq multikulturalizm və tolerantlıq nümunəsinə çevrilmişdir. Rəsmi Bakı həmişə beynəlxalq və regional qurumları, o cümlədən ATƏT-i Dağlıq Qarabağı işğalda saxlayan Ermənistana qarşı ciddi ölçülər götürməyə çağırmış, əks halda, Azərbaycanın işğala son qoymaq üçün hərəkətə keçəcəyini bəyan etmişdir. Belə bir qətiyyət beynəlxalq təşkilatları və AŞPA-

dakı antiazərbaycançı və ermənipərəst dairələri ciddi narahat etsə də, nəticə çıxarmamışlar. Azərbaycanın siyasi-hərbi və regional proseslərdə rolunun güclənməsi, xüsusilə də işğalçı Ermənistan qarşısında üstünlüyünün artması fonunda bəzi Qərb dövlətləri ölkəmizə qarşı məqsədli şəkildə, müxtəlif vasitələrlə təsir göstərməyə çalışırlar. Xarici ölkələrdə və beynəlxalq qurumlarda yerləşdirilmiş erməni lobbisi davamlı şəkildə AŞPA, Avropa İttifaqı və digər qurumlar vasitəsilə respublikamızın nüfuzuna xələl gətirə biləcək kampaniyalar aparmaqla məşğuldur.

Paraqrafda belə bir fikir ifadə edilir ki, informasiya müharibə-si-nin dərinləşməsi medianı seyrçi mövqeyində qoya bilməz və media bu prosesin ən fəal iştirakçısı olmaqla özünün davranışını nümayiş etdirməkdədir. Xüsusilə də beynəlxalq təhdidlərin artdığı, Azərbaycana qarşı maraqlı xarici qüvvələrin qərəz və ikili standartlara əsaslanan təsirlərinin çoxaldığı bir şəraitdə medianın ümumdövlət maraqlarından çıxış etməsi, milli dövlətçiliyin qorunmasında mütəşəkkil fəaliyyətinin güclənməsi olduqca vacib məsələyə çevrilmişdir. İnformasiyaya nəzarət olunması, informasiya ilə davranış prinsiplərinin müəyyən edilməsi, informasiya təhlükəsizliyinin qorunması Azərbaycanın mediasının qarşısında duran ən vacib vəzifələrdən biri olmalıdır. Media informasiyaların çatdırılmasında peşəkar jurnalistikadan uzağa getməməli, Azərbaycanın mövqeyini hər şeydən öndə tutmalıdır.

Üçüncü fəslin **“Vətən müharibəsi və postkonflikt dövründə Azərbaycanın dövlət informasiya siyasətinin əsas prioritetləri”** adlı beşinci paraqrafında 2020-ci ilin sentyabr-noyabr aylarında cərəyan etmiş hərbi əməliyyatların gedişində müşahidə edilən informasiya təhdidləri, sosial şəbəkə və rəqəmsal platformalarda informasiya təhdidlərinə qarşı mübarizə, daxili informasiya məkanının mühafizəsi və ictimai maarifləndirmə, informasiya cəbhəsində buraxılan səhvlər və onların fəsadları, eləcə də postmüharibə dövründə Azərbaycanın dövlət informasiya siyasətinin əsas prioritetlərindən bəhs edilir.

Göstərilir ki, hərbi və siyasi müstəvilərdə sarsıdıcı zərbələrə, məğlubiyyətə düçar olmuş Ermənistan məhz KİV-lər, sosial

şəbəkələr və digər yeni media alətləri üzərindən ölkəmizə qarşı informasiya təxribatlarını genişləndirməyə çalışmışdır. Buna baxmayaraq, Azərbaycan təkcə döyüş meydanında deyil, həm də diplomatiya və informasiya cəbhəsində Ermənistan üzərində üstünlüyünü qorumuş, təcavüzkar dövlətin beynəlxalq miqyasda ifşasına nail olmuşdur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin hərbi əməliyyatların başlanmasından xeyli əvvəl, eləcə də müharibə və postkonflikt dövründəki fəaliyyəti – yerli və xarici mediada müsahibələri, xalqa müraciətləri, mühüm açıqlama və bəyanatları ölkəmizə qarşı informasiya təxribatlarının qarşısının alınması və milli həqiqətlərin dünya arenasına çıxarılması baxımından xüsusilə əhəmiyyətli olmuşdur.

Belə bir qətiyyət ifadə olunur ki, rəsmi Bakı ölkəmizin milli təhlükəsizliyini və informasiya mühitini təhdid edən xoşagəlməz geosiyasi proseslərə qətiyyətli və çevik reaksiya vermək əzmindədir. Azərbaycan dövləti Rusiyaya tərəfdaş kimi yanaşsa da, bu ölkənin ikitərəfli münasibətlərin yüksək xarakterinə, eləcə də ATƏT-in Minsk qrupunun həmsədri statusuna cavab verməyən davranışlarını açıq mətnlə qınamışdır. Dövlət başçısı vurğulamışdır ki, Ermənistanın silahlanması prosesi qeyri-şəffaf şəkildə, "qara bazar" prinsiplərindən istifadə etməklə, eyni zamanda, xarici yardımlar hesabına həyata keçirilir. Bu ölkənin BMT-nin Adi Silahlar Registrinə təqdim etdiyi hesabatlar saxtadır və beynəlxalq ictimaiyyəti aldatmağa yönəlmişdir. Ermənistan qeyri-qanuni və ödənişsiz qaydada əldə etdiyi hərbi texnikanı əsasən işğal etdiyi Azərbaycan ərazilərində yerləşdirərək hesabatlara daxil etməmişdir. Bu bir daha göstərmişdir ki, Ermənistan işğal altında saxladığı Azərbaycan ərazilərindən beynəlxalq hüquqla qadağan olunmuş hərbi cinayətlər üçün istifadə edir.

Paraqrafda belə bir aparıcı leytmotiv, ana xətt xüsusilə qabardılmışdır ki, Vətən Müharibəsinin davam etdiyi 44 gün ərzində 30-dək əcnəbi mediaya müsahibə verən Prezident İlham Əliyev yüksək diplomatik məharətlə münaqişənin tarixi, danışıqlar mərhələsinin konstruktiv davranışlarının və ərazi ilhaqı siyasətinin

region üçün təhdidləri, beynəlxalq təşkilatların qətiyyətsiz davranışları, habelə Azərbaycanın hərbi əməliyyatların dayandırılması ilə bağlı beynəlxalq hüquqa əsaslanan şərtlərini bəyan etmiş, hücum diplomatiyasını uğurla davam etdirərək real faktlar, konkret arqumentlər əsasında Ermənistanın və onu açıq şəkildə dəstəkləyən dövlətlərin beynəlxalq miqyasda ifşasına nail olmuşdur. Bu müsahibələrdə bəzən peşəkar jurnalist etikası ilə bir araya sığmayan qərəzli, birtərəfli, obyektivlikdən, həqiqətdən uzaq yanaşmaları özündə ehtiva edən suallara rast gəlinsə də, prezident İlham Əliyev bu cür yanaşmalara münasibətdə yüksək diplomatik təmkin, bilik, təcrübə nümayiş etdirmişdir.

Dissertasiyanın **"İnformasiya siyasəti və hüquqi tənzimləmə"** adlanan dördüncü fəsli üç paraqrafdan ibarətdir. **"İnformasiya hüququ anlayışı və konstitusion əsaslarına siyasi baxış"** başlıqlı ilk paraqrafda müəllif "informasiya hüququ" anlayışını geniş şərh edir, informasiya hüququnun hansı əsas hüquqları özündə ehtiva etdiyini göstərir.

İnsanın və vətəndaşın informasiyaya olan hüququ dedikdə, iddiaçı *"...istənilən insanın (vətəndaşın, əcnəbinin və vətəndaşlığı olmayan şəxsin) istənilən qanuni üsulla faktlar, hadisələr, proseslər haqqında istənilən məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq hüququ başa düşülür"*[40] fikri ilə razılaşmaqla yanaşı, məhz informasiyaya olan hüququn həyata keçirilməsinin vətəndaşların formal deyil, real şəkildə dövlətin həyatında iştirakını təmin edən imkan olduğunu vurğulayır.

Müasir dövrdə hüquq ədəbiyyatında informasiyaya olan hüququn anlayışı ilə bağlı iki əsas yanaşma – dar və geniş yanaşmalar formalaşmışdır. Dar mənada informasiya hüququ informasiya əldə etmək hüququdur, ona görə də nisbi hüquqdur. Geniş mənada informasiya hüququ isə mütləq və nisbi hüquqlardan ibarətdir. Mütləq hüquq münasibətlərində səlahiyyətli şəxsə qarşı borclu şəxslərin qeyri-müəyyən dairəsi durur. Səlahiyyətli şəxs özü öz hüquqlarını müstəqil olaraq həyata keçirir və bütün qalan şəxslər

---

[40] Хижняк В.С. Право человека на информацию. Механизм реализации. Саратов: Издательство Саратовсого Университета, 1998, 68 с.

səlahiyyətli şəxsin hüquqlarını pozmamalıdırlar (məsələn, müəlliflik hüququ, ad hüququ).

Nisbi hüquq münasibətlərində isə yarandığı andan borclu və səlahiyyətli tərəf məlumdur. Yəni səlahiyyətli şəxsə qarşı dəqiq müəyyən olunmuş borclu şəxs durur və yalnız həmin şəxsə qarşı müəyyən tələblər irəli sürülə bilər. Mütləq hüquq münasibətlərində səlahiyyətli şəxs qarşısında bütün digər şəxslər məsuliyyət daşıyırlar. Müəllif geniş mənada informasiya hüququnun ehtiva etdiyi hüquqları təhlil edir.

Müəllif göstərilir ki, Konstitusiyada təsbit olunan əsas insan və vətəndaş hüquq və azadlıqları içərisində mühüm yer tutan informasiya hüququnun tanınması və təmin olunması ölkəmizdə insan hüquqlarına dair beynəlxalq prinsip və standartlara əməl olunması siyasətinin uğurlu təzahürlərindən biri kimi çıxış edir. Bu hüququn əsas hüquqlardan biri kimi Konstitusiyada əks etdirilməsi onun əhəmiyyətini göstərməklə daha səmərəli, dolğun və ardıcıl həyata keçirilməsini təmin edir. Eyni zamanda, informasiyaya olan hüququn və informasiya azadlığının konstitusion səviyyədə təsbit edilməsi bütövlükdə informasiya imkanlarının, o cümlədən vətəndaş və dövlət arasında yeni informasiya münasibətlərinin inkişafında şəxsiyyətin azadlığının daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

İnformasiya hüququnun konstitusion əsaslarını təşkil edən əsas müddəalar Azərbaycan Respublikası Konstitusiyasının "Şəxsi toxunulmazlıq hüququ" adlanan 32-ci, "Fikir və söz azadlığı" adlanan 47-ci, "Məlumat azadlığı" adlanan 50-ci maddəsində öz əksini tapmış, bu sahədə müəyyən təfərrüatlar və nüanslar isə Əsas qanunun bir çox digər maddələrində təsbit edilmişdir [41].

Konstitusiyada təsbit olunan əsas insan və vətəndaş hüquq və azadlıqları içərisində mühüm yer tutan informasiya hüququnun tanınması və təmin olunması ölkəmizdə insan hüquqlarına dair beynəlxalq prinsip və standartlara əməl olunması siyasətinin uğurlu təzahürlərindən biri kimi çıxış edir. Bu hüququn əsas hüquqlardan

[41] Azərbaycan Respublikasının Konstitusiyası. http://www.e-qanun.az /framework/897

biri kimi Konstitusiyada əks etdirilməsi onun əhəmiyyətini göstərməklə daha səmərəli, dolğun və ardıcıl həyata keçirilməsini təmin edir. Eyni zamanda, informasiyaya olan hüququn və informasiya azadlığının konstitusion səviyyədə təsbit edilməsi bütövlükdə informasiya imkanlarının, o cümlədən vətəndaş və dövlət arasında yeni informasiya münasibətlərinin inkişafında şəxsiyyətin azadlığının daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Müəllif bu paraqrafda Konstitusiyanın və müvafiq qanunların konkret maddələrini ətraflı şərh edir.

Fəslin növbəti paraqrafı **"Dövlət informasiya siyasətinin qanunvericilik əsaslarının formalaşması və inkişafı"** adlanır. Məlum olduğu kimi, Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra vətəndaş cəmiyyətinin və hüquqi dövlətin vacib atributu olan kütləvi informasiya vasitələrinin inkişafında yeni mərhələnin əsası qoyulmuşdur. Ölkəmizin son 27 ildə söz və mətbuat azadlığının inkişaf dinamikasına görə MDB-də öncül yerlərdən birini tutması da məhz həmin reallıqlarla şərtlənir.

Müəllif adı çəkilən paraqrafda ötən dövrdə Azərbaycanda dövlət informasiya siyasətinin hüquqi bazasının yaradılması və inkişafından ətraflı bəhs etmişdir.

Müasir dövrdə Azərbaycanda azad mətbuatın, müstəqil KİV-in inkişafında mühüm mərhələ məhz 1998-ci ildə mətbuat üzərində senzuranın ləğv edilməsi ilə başlayır. Həmin ildə dövlət başçısı tərəfindən imzalanan "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmana müvafiq surətdə həyata keçirilən işlər kütləvi informasiya vasitələrinin fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına fundamental şərait yaratdı.

Paraqrafda qeyd edilir ki, 1998-ci ildə Azərbaycan MDB məkanında mətbuat üzərindən dövlət nəzarətini götürən ilk respublika idi. Bir il sonra, 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Həmin qanunun qəbulu bu sahədə münasibətləri tənzimləyən normativ hüquqi bazanın keyfiyyətcə daha da zənginləşdirilməsi və təkmilləşdirilməsi baxımından mühüm addımlardan biri idi. Bu,

KİV-in inkişafını şərtləndirən, dövlət, cəmiyyət və media münasibətlərini tənzimləyən, müvafiq hüquqi bazanı zənginləşdirən mütərəqqi bir qanun idi. Bu sənəd, eyni zamanda, mətbuatın inkişafına mane olan bürokratik əngəllərin aradan qaldırılmasına rəvac verdi. Dövlət qeydiyyatı ləğv edildi və mətbu nəşrlərin təsis olunması proseduru qeyri-adi dərəcədə sadələşdirildi.

Konstitusiyaya əsasən qəbul edilib, onun demokratik müddəalarını daha da inkişaf etdirərək konkretləşdirən və informasiya, fikir, söz və mətbuat azadlığının hüquqi əsasını təşkil edən qanunlara aşağıdakıları aid etmək mümkündür: "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Elektron sənəd və elektron imza haqqında", "Telekommunikasiya haqqında", "Dövlət sirri haqqında", "Rabitə haqqında", "Müəlliflik hüquqları və əlaqəli hüquqlar haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" və s.

Tədqiqatçı hesab edir ki, dövlət informasiya siyasətinin qanunvericilik əsaslarının formalaşması və inkişafı prosesi bütövlükdə siyasi sistemin və cəmiyyətin ümumi inkişaf xətti ilə paralel irəliləyən və biri digərini qarşılıqlı şəkildə zənginləşdirən dialektik prosesdir.

Elmi işin dördüncü fəslinin üçüncü paraqrafında – **"İnformasiya münasibətlərinin hüquqi tənzimlənməsi. İnformasiya qanunvericiliyinin inkişaf perspektivləri",** informasiya münasibətlərinin hüquqi tənzimlənməsinin əhatə etdiyi istiqamətlər təhlil edilir.

Bu paraqrafda qeyd olunur ki, milli hüquq ədəbiyyatında dövlət informasiya resurslarının hüquqi tənzimlənməsi ilə bağlı məsələlər kifayət qədər təhlil edilməmişdir. Bu sahədə tədqiqatların genişləndirilməsi ilə yanaşı, dövlət informasiya resurslarının hüquqi tənzimlənməsi üzrə işlərin əlaqələndirilməsinə dair elmi cəhətdən əsaslandırılmış konsepsiyanın qəbul edilməsi əhəmiyyətli və məqsədəuyğun olardı.

İnformasiya münasibətlərinin hüquqi tənzimetməsini zaman

və məkan daxilində uzanan proses kimi nəzərdən keçirmək lazımdır. Ona görə də gələcəkdə onun aşağıdakı mərhələləri dərindən tədqiq edilməlidir:

1. İnformasiya sahəsində hüquq subyektlərinin hüquqi vəziyyə-tinin müəyyən edilməsi. Hüquqi tənzimetmə məntiqi olaraq bu sahədə subyektlərin hüquqi vəziyyətinin əsaslarının müəyyənləş-dirilməsindən başlayır.

2. Müəyyən informasiya hüquq münasibətlərinin yaranması - hüquqi tənzimetmənin növbəti mərhələsi.

İnformasiya-hüquq münasibətlərinin hüquqi tənzimlənməsi sisteminin yaradılmasında məqsəd yeni informasiya texnologiyalarından ictimai həyatın və insan fəaliyyətinin bütün sahələrində geniş istifadə edilməsi üçün əlverişli şəraitin yaradılmasından ibarətdir.

İddiaçı göstərir ki, ictimai münasibətlərin hüquqi tənzimlən-məsi məsələsi yalnız dövlət və hüquq nəzəriyyəsinin deyil, həm də yeni yaranan hüquq sahəsi kimi informasiya hüququnun da problemidir.

Hüquqi tənzimetmənin obyekti kimi informasiyanın hüquqi əhəmiyyətli əlamətlərinə aşağıdakıları aid etmək olar: qeyri-maddi xarakter daşıması (daşıyıcıya münasibətdə müstəqillik); subyektiv xarakter daşıması (informasiya şüurlu subyektin əqli fəaliyyəti nəticəsində yaranır); hüquqi dövriyyəyə daxil edilməsi üçün obyektivləşdirilməsi zərurəti; kəmiyyət müəyyənliyi; dəfələrlə istifadə imkanı; göndərilən informasiyanın göndərən subyektdə qalması (saxlanılması) imkanı; təkrar istehsalının, köçürülməsinin, saxlanılmasının və toplanılmasının mümkünlüyü.

Paraqrafda Azərbaycanda dövlət informasiya siyasətinin birdən-birə formalaşmadığı vurğulanır. Əvvəlcə, informasiya sahəsində dövlətin əsas prioritetləri təşəkkül tapmışdır. Daha sonra, yəni növbəti mərhələdə informasiya təhlükəsizliyi sahəsində dövlət siyasəti inkişaf etdirilmişdir. Nəhayət, üçüncü mərhələdə isə informasiya məkanı və informasiya təhlükəsizliyi, onların hüquqi tənzimlənməsi ilə bağlı günün tələblərinə cavab verən konseptual xarakterli sənədlərin qəbuluna xüsusi önəm verilir.

İnformasiya münasibətlərinin hüquqi tənzimlənməsi informasiya

hüquq normalarının informasiya-hüquq münasibətlərinə nizamlayıcı təsirini ifadə edir. İnformasiya-hüquq münasibətlərini informasiya və onun hüquqi əhəmiyyətli nəticələri ilə bağlı yaranan və informasiya hüquq normaları ilə tənzimlənən ictimai münasibətlər kimi xarakterizə etmək olar. Dövlət informasiya siyasətinin prioritet istiqamətləri üzrə əsas məqsədlərə yalnız informasiya qanunvericiliyinin günün tələblərinə, mütərəqqi beynəlxalq təcrübəyə və standartlara uyğun olaraq davamlı surətdə təkmilləşdirilməsi yolu ilə nail olmaq mümkündür.

Dissertasiya işinin **Nəticə** hissəsində müəllif tərəfindən ümumiləşdirmələr aparılır, onların əsasında nəzəri və praktik əhəmiyyət kəsb edən tövsiyələr irəli sürülür. İddiaçı belə qənaətə gəlir ki, həm məzmun və mündəricəsi, həm də münasibətlərin keyfiyyəti ilə fərqlənən yeni dövrdə Azərbaycan Respublikasının informasiya siyasətinin öhdəsinə miqyası və əhəmiyyəti etibarilə çox vacib vəzifə və məsələlərin həlli düşür:

- Azərbaycanın vahid informasiya məkanının yaradılması və onun dünya informasiya məkanına inteqrasiyası;
- dövlətin, şəxsiyyət və cəmiyyətin informasiya təhlükəsizliyinin təmin edilməsi;
- demokratik təmayüllü kütləvi düşüncənin formalaşması;
- informasiya xidmətləri sahəsinin təşəkkülü və s.

Dövlət informasiya siyasətinin nəzəri-metodoloji əsasları, informasiya anlayışı, informasiya siyasətinin dövlət hakimiyyətinin yürütdüyü digər siyasətlər içindəki yerindən bəhs edərkən müəllif belə bir nəticəyə gəlmişdir ki, informasiya siyasəti Azərbaycanın dövlət siyasətinin vacib istiqamətlərindən biridir. Dövlət mexanizmi siyasətlə yanaşı, siyasi mübarizənin də fəal subyekti qismində çıxış etməklə həmin mübarizənin qayda, sərhəd və formalarını qanunvericilik əsasında təmin edir, bu sahədə hüquq-mühafizə və hüququn tətbiqi praktikasını həyata keçirir, həmçinin bu mübarizədə qanunun imkan verdiyi çərçivədə dövlət hakimiyyətinə malik subyektin tərəfində çıxış edir.

Tədqiqat işində konkret empirik nəticələrə gəlməyə imkan verən məsələlərdən biri də KİV-informasiya siyasəti tandemidir.

Dövlət informasiya siyasətinin formalaşmasında KİV-in rolu onun siyasi imkanları ilə müəyyən olunur. Bu müstəvidə dövlət KİV-ə dəstək verilməsində və onun fəaliyyətinin tənzimlənməsində maraqlıdır:

- dövlət və KİV vacib politoloji institut və siyasi kommunikasiyanın əsas aktorları qismində siyasi prosesin mühüm iştirakçılarıdırlar;

- dövlət informasiya siyasəti həm də KİV vasitəsilə reallaşır və cəmiyyətə mənəvi-siyasi təsir göstərir. Dövlət informasiya siyasətinin əsas istiqamətlərini KİV sahəsində siyasət, medianı tənzimləyən qanunvericilik, KİV-in öz informasiya siyasəti, KİV-dövlət informasiya siyasətinin qarşılıqlı münasibətləri təşkil edir;

- dövlət informasiya siyasəti ənənəvi və yeni medianın yazılı və elektron KİV-nin texnoloji inkişafını təmin edir; İKT-nin KİV-ə tətbiqinə, sosial medianın, internetin, bloqların reallaşmasına yardım edir, KİV və hakimiyyətə inamı möhkəmlədir və s.

Müəllifin gəldiyi qənaət budur ki, Azərbaycan dövlət informasiya siyasəti sferasında formalaşmış münasibətləri tənzimləyən geniş hüquqi və nəzəri-siyasi bazaya malikdir. Həmin sənədlərin mövcudluğu dövlətin informasiya-kommunikasiya infrastrukturunun daha səmərəli yüksəlişinə təkan verər, cəmiyyətin bütün sferalarında informasiya və biliyin istehsal və istehlakına əlverişli şərait yarada, insan faktoru və informasiya mühitini dövlət idarəçiliyi sferasının təkmilləşdirilmə bazası kimi inkişaf etdirə, informasiya inkişafı proseslərinin normativ-hüquqi tənziminin təkmilləşdirilməsinə töhfəsini verərdi.

## Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1. KİV-in siyasi institut kimi modernləşmə prosesində yeri // Bakı: Geostrategiya, – 2015. №01 (25), – s. 27-32.

2. Dövlət informasiya siyasətinin tarixi inkişaf mərhələləri // Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2015. №1, – s. 51-58.

3. Dövlət informasiya siyasətinin tarixi inkişaf mərhələləri //

Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2015, №2, – s. 164-172.

4. Azərbaycan geosiyasətinin mükəmməl elmi-politoloji tədqiqi // Bakı: Strateji təhlil, – 2015. №2 (13), – s. 237-244.

5. Erməniçilik – ifrat şovinizm və mürtəce separatçılığın sinonimi / Saxta erməni soyqırımı: uydurma və gerçəklik // Beynəlxalq konfransın məruzə və tezislər toplusu, AMEA İHİ, – Bakı: – 10 aprel, – 2015.

6. İnformasiya azadlığı və informasiya təhlükəsizliyi: milli təhlükəsizlik kontekstində // İnformasiya texnologiyaları. İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktik konfransının Əsərləri, – Bakı: – 14 may, – 2015, – s. 23-30.

7. State information polisy of Azerbaijan and the media. "Vela Verlag Waldkraiburg", SCIENCE INNOVAT ORS, International Conference on European Science and Technology // – Munich, Germany: – 28-29 may, – 2015, – s. 207-211.

8. İnformasiya azadlığı və informasiya təhlükəsizliyinin bəzi məsələləri milli təhlükəsizlik kontekstində // Bakı: Strateji təhlil, – 2016. № 1-2(15-16), – s. 311-325.

9. Dövlət qulluğu sistemində elektron vasitələrdən istifadənin şəffaflığın artırılmasında əhəmiyyəti // Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2016. № 1(53), – s. 207-217.

10. Государственная информационная политика и средства массовой информации // Киів: Гілея, – 2016. Випуск 109 (№6), – с. 391-395.

11. Kütləvi informasiya azadlığının siyasi-hüquqi təminatı // Bakı: Sivilizasiya, – 2016. 4/28-30, – s. 107-115.

12. Azadlıq fəlsəfəsi və informasiya hüququ // Bakı: Nəqliyyat hüququ, – 2016. №4, – s. 113-122.

13. İnformasiya hüququnun multidissiplinar xarakteri // Bakı: Sivilizasiya, – 2016. Cild 5, №4, (32), – s.22-28.

14. Azərbaycanda siyasi modernləşmənin xüsusiyyətləri // Bakı: Geostrategiya, – 2016. №05 (35), – s. 34-39.

15. İnformasiyaya olan hüquq və informasiya azadlığı // Bakı: AMEA Xəbərlər. İctimai elmlər seriyası, – 2017. №1, – s. 105

- 111.

16. İnformasiya hüququnun konstitusion əsasları // Bakı: ADPU “Xəbərlər”, – 2017. c.65, №1, – s. 115-125.

17. İnformasiya təhlükəsizliyi və informasiya mühiti // Bakı: BDU Xəbərləri. Sosial-siyasi elmlər seriyası, – 2017. №1, – s. 100-109.

18. Milli təhlükəsizlik və milli maraqlar: Qərb və ABŞ-dan baxış // Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2017. №1 (57), – s. 211-217.

19. İnformasiya təhlükəsizliyinin anlayışı və prinsipləri // Bakı: Sivilizasiya, – 2017. cild 6, №1, (33), – s. 92-98.

20. Milli təhlükəsizlik siyasəti və Azərbaycan // Bakı: Geostrategiya, – 2017. №2 (38), – s. 25-30.

21. Milli təhlükəsizliyin Rusiya modeli barədə // Bakı: Hərbi bilik, – 2017. №2 (146), – s. 54-63.

22. Azadlıq fəlsəfəsi və informasiya hüququ // Bakı: Strateji təhlil, – 2017. № 1-2 (19-20), – s. 421-432.

23. Философия свободы и право на информацию // Москва: Актуальные проблемы гуманитарных и естественных наук, – 2017. №2, – с. 128-134.

24. Право на информацию и свобода информации // Кишинев: LEGEA ŞI VİATA, – 2017. №2/2 (302), – с. 84-89.

25. Развитие законодательных основ государственной информационной политики // Тбилиси: Межкультурные коммуникации, – 2017. № 28, – с. 102-108.

26. Информационная безопасность и информационная среда // Алматы: Наука и жизнь Казахстана. Унив. Аль Фараби, – 2017. №2(44), – с. 110-117.

27. Национальная безопасность и национальные интересы: взгляд из Запада и США // Київ: Гілея, – 2017, Випуск 217 (№2), – с. 295-300.

28. О Российской модели национальной безопасности // Volgograd: Science and world. International scientific journal, – 2017. №2(42), vol.I, – с. 87-91.

29. Dövlət informasiya siyasətinin qanunvericilik əsaslarının

inkişafı // Bakı: Sivilizasiya, – 2017. cild 6, №2 (34), – s. 68-74.

30. Dövlət informasiya siyasəti: anlayışı, prinsip və funksiyaları // Bakı: ADPU. Tarix, İnsan və Cəmiyyət, – 2017. 2(17), – s. 41-50.

31. The concept and principles of information security. IV International Scientic and Practical Conference "Modern Scientic Achievements and Their Practical Application" // – Dubai, UAE: – October 31, – 2017, – p. 91-96.

32. Siyasi təhlükəsizliyin bəzi konseptual məsələləri // Bakı: AMEA Xəbərlər. İctimai elmlər seriyası, – 2017. №3, – s.102-108.

33. İnformasiya qanunvericiliyinin inkişaf perspektivləri // Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2017. №3 (59), – s.191-198.

34. İnformasiya münasibətlərinin hüquqi tənzimlənməsinin xüsusiyyətləri // Bakı: Dirçəliş, – 2017. №183, – s.130-140.

35. Legal framework of information security: comparative approach // Baku: International Law and Integration Problems, – 2017. №3(51), – pp. 66-71.

36. Правовые основы информационной безопасности: компаративный подход // Санкт Петербург: Актуальные вопросы современной науки, – 2017. №3 (15), – с. 48-55.

37. Национальная безопасность и национальные интересы в информационной сфере // Алматы: ХАБАРШЫ, «Казак университети», – 2017. 3(61), – с. 150-158.

38. Dövlət informasiya siyasəti: klassik yanaşmalar, müasir konseptlər // Bakı: Strateji təhlil, – 2017. № 3-4 (21-22), – s. 209-222.

39. Dövlət informasiya siyasətinin qanunvericilik əsaslarının təşəkkülü // Bakı: Bakı Universitetinin xəbərləri. Sosial-Siyasi elmlər seriyası, – 2017. №4, – s. 5-13.

40. İnformasiya təhlükəsizliyinin hüquqi əsasları: komporativ yanaşma // Bakı: Geostrategiya, – 2017. №5 (41), – s. 19-23.

41. İnformasiya hüququnun konstitusion əsasları // Bakı: Məhkəmə ekspertizası, krininalistika və kriminologiyanın aktual məsələləri, – 2017. №65, – s. 47-56.

42. Государственная информационная политика: классический подход и современные концепции // Киів: Гілея, – 2017, Випуск 125 (№10), – с.381-385.

43. İnformasiya təhlükəsizliyi: hüquqi əsasları, müqayisəli yanaşma // İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri. IV respublika konfransı, – Bakı, – 14 dekabr, – 2018.

44. Понятие и принципы информационной безопасности // Varsaw: MULTIDISCIPLINARY SCIENTIFIC EDITION. INTERNATIONAL ACADEMY JOURNAL. «Web of Scholar». ISSN 2518-167X . Poland, – 2017. №8(17), – pp. 91-96.

45. Особенности информационной деятельности в Азербайджане: теоретические аспекты и современная практика // Одесса: POLITICUS, – 2017. выпуск 5, – с. 30-35.

46. Концептуальные вопросы политической безопасности // Киів: Гілея, – 2017. Випуск 133(№6), – с. 251-255.

47. Dövlət informasiya siyasətinin struktur elementləri // Naxçıvan: AMEA Naxçıvan bölməsi. Xəbərlər (ictimai və humanitar elmlər seriyası), – 2018. №1, – s. 53-58.

48. Azərbaycan Respublikasında Dövlət informasiya siyasətinin tarixi (1991-2016) // Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2018. c. 66, №1, – s. 192-202.

49. Azərbaycan Respublikasında dövlət informasiya siyasətinin tarixi (1991-2016) // Bakı: Sivilizasiya, – 2018. Cild 7, №1(37), – s. 67-72.

50. Dövlət informasiya siyasətinin reallaşdırılması və dövlət hakimiyyəti // Lənkəran: Lənkəran Dövlət Universiteti. Elmi Xəbərlər (humanitar elmlər bölməsi), – 2018. №1, – s. 159-165.

51. KİV-in dövlət informasiya siyasiyasətinin formaşmasında rolu // Bakı: AMEA Fəlsəfə İnstitutu. Elmi Əsərlər (Beynəlxalq elmi-nəzəri jurnal), – 2018. №1(30), – s.176-182.

52. Dövlət informasiya siyasəti və onun reallaşdırılması təcrübəsi // Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri (ictimai elmlər seriyası), – 2018. №2(91), I cild, – s. 200-207.

53. Legislation of state information policy the formation of bases and development. The journal of juristic papyrology. Indexed by Thomson & Reuters Citation Index. Impact Factor 1.09VOL. XXXXVIII, Special Issue 3, – 2018. – p. 106-118.

54. Dövlət informasiya siyasətinin ictimai həyata təsir dairəsi // Bakı: AMEA, "Xəbərlər". İctimai elmlər seriyası, – 2018. №2, – s. 142-147.

55. Müasir informasiya cəmiyyətində informasiya təhlükəsizliyi məsələlərinin media kontenti // Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. – 2018. №2(62), – s. 193-204.

56. Azərbaycanda iqtisadi transformasiyalar şəraitində informasiya siyasəti // Bakı: Sivilizasiya, – 2018. Cild 7, №2(38), – s. 32-39.

57. Azərbaycanda siyasi transformasiyalar şəraitində informasiya siyasəti // Bakı: Bakı Universitetinin xəbərləri, Sosial-Siyasi elmlər seriyası, – 2018. №2, – s. 85-97.

58. Azərbaycan Respublikasında dövlət informasiya siyasətinin tarixi (1991-2016)//Bakı: Geostrategiya, – 2018. №03 (45), – s. 20-24.

59. İnformasiya müharibəsi və informasiya terroru şəraitində medianın davranışı // Naxçıvan: AMEA Naxçıvan bölməsinin Xəbərləri, – 2018. №3, Cild 14, – s. 63-72.

60. İnformasiya terroru şəraitində medianın qarşısında duran vəzifələr // Bakı: AMEA, "Xəbərlər", İctimai elmlər seriyası, – 2018. № 3, – s. 146-151.

61. Информационная политика в Азербайджане в условиях политико-экономических трансформаций // Баку: Strateji təhlil", – 2018. № 3-4(25-26), – с. 135-150.

62. İnformasiya siyasətinin həyata keçirilməsində KİV-in rolu // Bakı: Qərb Universiteti "Elmi Xəbərlər. Humanitar Elmlər Seriyası, – 2018. №4, – s. 88-98.

63. Информационная политика в условиях политико-экономических трансформаций // Одесса: POLITIKUS, Index Copernicus International, – 2018. №4, – с. 57-64.

64. "Formation and development of the legislative basis of

the state information policy". CLASSICAL BULLETIN. XAVIER UNIVERSITY DIVISION OF ACADEMIC AFFAIRS SCHOLARLY PRESENTATIONS. Journal is indexed by Thomson Reuters Emerging Citation Index & Art and Hmanities Citation Index.
İSSN 0009-8337, – 2018. Volume: 94 Issue: 4, – p.74-96

65. İlham Əliyev və Azərbaycan mediası. Prezident İlham Əliyevin dövlət siyasətinin prioritet istiqamətləri (mühazirələr toplusu) // Bakı: AR Prezidenti yanında Bilik fondu, – 2018. – s. 171-179.

66. Обеспечение национальных интересов Азербайджана в контексте информационной безопасности // Баку: Sivilizasiya, – 2019. cild 8, №2, (42), – s.14-23

67. Müasir dövrdə KİV sahəsində dövlət informasiya siyasətinin əsas xüsusiyyətləri // Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2019. № 1(65), – s. 181-189.

68. Azərbaycan Respublikasında milli maraqların təmin edilməsi informasiya təhlükəsizliyi kontekstində // Bakı: Bakı Univer-sitetinin xəbərləri. Sosial-Siyasi elmlər seriyası, – 2019. №3, – s.

69. İnformasiya siyasəti ictimai rəyin formalaşdırılması kontekstində // Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2019. №3, C.67, – s. 184-192.

70. Информационная политика в контексте формирования общественного мнения // Москва: Вопросы истории, ВАК, Scopus, WoS CC, WoS RSCI, РИНЦ, – 2019. № 9, – с. 159-166.

71. KİV sahəsində dövlət informasiya siyasətinin bəzi məsələləri // Bakı: Geostrategiya, – 2019. № 4 (52), – s. 25-31.

72. “New media”da hüquqi məsuliyyət və kibercinayətkarlıq // Bakı: “Geostrategia”, – 2020. № 01 (55), – s. 28-34.

73. Legal basis of information security: comparative approach //

Москва: Вопросы истории, ВАК, Scopus, WoS CC, WoS RSCI, РИНЦ, – 2020. № 3, – с. 107-113.

## Monoqrafiya və kitablar

1. Dövlət informasiya siyasəti (KİV timsalında) – Bakı: Elm və Təhsil, – 2016. – 324 s.
2. Dövlət informasiya siyasəti və informasiya hüququ – Bakı: Elm və Təhsil, – 2017. – 412 s.
3. Cəmiyyət və İnformasiya: nəzəri siyasi aspektlər və təcrübə (məqalələr toplusu) – Bakı: Elm, – 2019. – 644 s.



Dissertasiyanın müdafiəsi **24 may 2021-ci il** tarixində saat **$14^{00}$**-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BED 2.30 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, M.Lermontov küç., 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat **23 aprel 2021-ci il** tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.04.2021

Kağızın formatı: A5

Həcm: 89 598

Tiraj: 80